

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

03 iyun 2026-cı il, çərşənbə
№ 094 (7161)
Qiyməti 60 qəpik


# 31-ci dəfə...



## Qlobal enerji gündəliyi Bakıda müzakirə olunur




Bax səh. 2

## 907-ci düzəliş yenidən dayandırıldı...

### Prezident təşəkkür etdi

Bax səh. 3

## Zəngəzur dəhlizinin inkişafında yeni mərhələ...

Bax səh. 5



Bax səh. 4

## "Heydər Əliyev məktəbi" layihəsinin açılış mərasimi keçirilib

## Uğurlu enerji strategiyası...

"Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış edən Prezident İlham Əliyev iqtisadi müstəqilliyin möhkəmlənməsində və inkişafın təmin edilməsində enerji amilinin mühüm əhəmiyyətinə toxundu. Bəyan edildiyi kimi Ulu Öndərin əsasını qoyduğu enerji strategiyası uğurlu model kimi həm Azərbaycanın milli maraqlarının tam təmin edilməsində, həm də dünya ölkələrinin enerji təminatında mühüm rol oynayıb. Ölkəmizin iqtisadi mənzərəsi köklü şəkildə dəyişib, bu, uğurlu enerji siyasətinin həyata keçirilməsi nəticəsində 1990-cı illərin əvvəllərinin Azərbaycanı ilə müasir Azərbaycan arasındakı fərq aydın görünməkdədir.

Dövlət başçısı neft-qaz gəlirlərinin düzgün və səmərəli idarə edilməsi sayəsində əldə edilən nəticələrə toxunaraq milli gəlirlərin sosial infrastruktur, təhsil, səhiyyə, ordu quruculuğu və iqtisadi inkişafa möhkəm töhfə verdiyini xatırlatdı. Enerji layihələri işə düşdükdən sonra Azərbaycan böyük maliyyə vəsaitləri əldə etməyə başladı və dayanıqlı inkişaf...

Bax səh. 3



Bax səh. 4

## İqtidar-müxalifət siyasi dialoqu davam edir

## Amritsar hadisələri...

### Bakı Təşəbbüs Qrupu Hindistan hökumətinin ayrı-seçkilik siyasətindən əziyyət çəkən icmaları bir araya gətirir

Bax səh. 5

## Sənədsiz evlər düyünü çözülə bilmir...

### Mövcud vəziyyət daşınmaz əmlak sektorunda yeni hüquqi mexanizmlərin hazırlanmasını labüd edir

Bax səh. 6

## Razılığa gəldilər...



Bax səh. 7



## Ermənistan seçki ərəfəsində: xaos, sui-qəsd cəhdi və revanşizm

Bax səh. 7







# 31-ci dəfə...

## Qlobal enerji gündəliyi Bakıda müzakirə olunur

Azərbaycan paytaxtının ənənəvi olaraq ev sahibliyi etdiyi "Bakı Enerji Həftəsi" ("Baku Energy Week") qlobal enerji gündəliyinin aktual məsələlərinin müzakirə olunduğu mühüm beynəlxalq platformaya çevrilib. Təşkil edildiyi illər ərzində "Baku Energy Week" qlobal tədbirlər təqvimində həmişə gözlənilən hadisələrdən biri olub. İyunun 1-də hazırda regionun aparıcı sənaye tədbiri olan və hər il qlobal enerji liderlərini bir araya gətirən "Bakı Enerji Həftəsi" 31-ci dəfə fəaliyyətə başlayıb.

"Bakı Enerji Həftəsi" özündə üç mötəbər tədbiri birləşdirir: 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum".

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı tədbirdəki çıxışında tarixə qısa ekskurs edib, ABŞ-ın liderliyi ilə güclü beynəlxalq əməkdaşlıq formatında keçilən yolda qazanılan böyük uğurlardan məmnunluğunu bildirib, enerji diplomatiyasının yeni çağırışlarına diqqət çəkib.

## 30 il ərzində keçilən uğurlu yol

"Bakı Enerji Həftəsi"ndən bəhs edərkən, ilk növbədə, tarixə nəzər salmaq lazımdır. Bu tədbirin təməlində dayanan Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoyub. Enerji diplomatiyasının inkişafına, strateji tərəfdaşlıqlar qurulmasına və qlobal enerji xəritəsində ölkəmizin mövqeyinin möhkəmlənməsinə töhfə verən bu tədbir ilk milli sərgi brendimiz kimi tarixə düşüb. "Bakı Enerji Həftəsi"ni qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biri kimi səciyyələndirən dövlətimizin başçısı vurğulayıb: "Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır".

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış bu tədbir Prezident İlham Əliyevin dəstəyi ilə dünyanın ən nüfuzlu enerji tədbirlərindən birinə çevrilib. Dövlətimizin başçısının "Bakı Enerji Həftəsi"nin açılış mərasimində iştirakı tədbirin yüksək statusunu və əhəmiyyətini vurğulayır. Ölkə başçısı sərgiləri ziyarət edərək iştirakçılar və ekspozisiyalar ilə tanış olur.

ABŞ və Türkiyə prezidentləri, eləcə də Böyük Britaniyanın Baş naziri kimi dünya liderlərinin iştirakçılara məktublar ünvanlamaları bu tədbirin beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini bir daha təsdiqləyir. "Bakı Enerji Həftəsi"nə əlaqədar dövlət strukturlarının, enerji sahəsində fəaliyyət göstərən şirkətlərin rəhbər şəxsləri, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin başçıları qatılırlar. Uzun illərdir ki, "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) baş tərəfdaş qismində çıxış edir.

Bu il "Baku Energy Week"də dünyanın 44 ölkəsindən 274 şirkət iştirakını təsdiq edib. Tədbirin coğrafiyası Azərbaycanla yanaşı, Almaniya, Amerika Birləşmiş Ştatları, Avstriya, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çexiya, Çin, Çin Xalq Respublikasının Honkonq Xüsusi İnzibati Bölgəsi, Fransa, Hindistan, Filippin, Gürcüstan, İordaniya, İspaniya, İsveçrə, İtaliya, Lüksemburq, Qətər, Qazaxıstan, Kanada, Litva, Macarıstan, Misir, Moldova, Monako, Niderland, Norveç, Özbəkistan, Rumıniya, Rusiya, Sinqapur, Səudiyyə Ərəbistanı, Tacikistan, Türkiyə, Ukrayna, Yaponiya və digərlərini əhatə edir. Almaniya və Rusiya "Bakı Enerji Həftəsi"ndə milli pavilyon ilə təmsil olunur.

Bu il sərgi iştirakçılarının 35 faizini yeni şirkətlər təşkil edir. Azərbaycanın neft, qaz və enerji sektoruna beynəlxalq maraq artmaqda davam edir. Sərgi iştirakçılarının təxminən 60 faizini xarici şirkətlər, 40 faizini isə yerli müəssisələr təşkil edir. Bu, yüksək səviyyəli beynəlxalq əməkdaşlıqla yanaşı, yerli biznesin fəal iştirakını da bir daha nümayiş etdirir. Sərginin daimi iştirakçıları olan sənayenin aparıcı şirkətləri sərgi sahəsinin 40 faizini əhatə edir. Ənənəvi olaraq, onların bir çoxu enerji sektorunun inkişafına töhfələrini təsdiqləyərək sponsor kimi iştirak edirlər.

Tədbirin iştirakçıları, eləcə də tərəfdaşları və sponsorları sırasında ABB, "Acwa", "AZEL Systems LLC", "Baku Steel Company", bp, "ExxonMobil", "XRG", "Gap İnşaat", "GL", "Gran Tierra Energy", "Inpex", INTI, KPMG, "Kolin İnşaat", "Masdar", "MOL Group", SLB, "Umid Babek Operating Company (UBOC)", "TotalEnergies" və "Türkiye Petrolleri AO" kimi nüfuzlu şirkətlər yer alır. Bundan əlavə, Bakı Enerji Forumunun intellektual tərəfdaşı qismində "Boston Consulting Group" çıxış edir. "Deloitte" forumun konsultativ tərəfdaşıdır.

Tədbirin rəsmi bankı qismində ölkənin aparıcı korporativ maliyyə institutu "PAŞA Bank" çıxış edir. "PAŞA Bank" beynəlxalq maliyyə nəşri "International Investor Magazine" tərəfindən 2026-cı il üzrə "Azərbaycanın ən yaxşı bankı" və "Azərbaycanın ən yaxşı KOS bankı" adına layiq görülüb. Bank son illərdə "Euromoney" və "Global Finance" kimi nüfuzlu beynəlxalq nəşrlər tərəfindən bir sıra mükafatlarla təltif olunub. Eyni zamanda, "Stevie Awards" tərəfindən "İlin şirkəti" nominasiyasında "Gold Stevie" mükafatını qazanan ilk Azərbaycan bankı olub. Tərəfdaşlar arasında həmçinin "Absheron Hotel Group", "Accurate MMC" və "Bilbord.al" şirkətləri yer alır.

Bu gün tədbir ənənəvi enerji sektorundan daha geniş istiqamətləri əhatə edərək enerji keçidi, yaşıl enerji, rəqəmsallaşma, süni intellekt texnologiyaları, logistika, sənaye və infrastruktur sahələrini də birləşdirən beynəlxalq biznes ekosisteminə çevrilib. "Caspian Oil and Gas" sərgisinin əhatə etdiyi mühüm bölmələrə neft və qaz yataqlarının işlənməsi, neft və qazın nəqli və hasilatı, telekommunikasiya və İT, neft və qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar və s. daxildir. Sərgidə süni intellekt, dekarbonizasiya, qazma sahəsi, eləcə də neft və qeyri-qaz məhsullarının istehsalı və saxlanması ilə bağlı yeniliklər də təqdim olunur.

"Caspian Power" sərgisində beynəlxalq və yerli şirkətlərin energetika və yaşıl enerji mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yeniliklər və bununla bağlı təkliflər gündəmə gətirilib. Sərgidə Günəş enerjisi, külək enerjisi, geotermal enerji, istilik energetikası, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri, enerji resurslarına qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş olunur.



**Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış bu tədbir Prezident İlham Əliyevin dəstəyi ilə dünyanın ən nüfuzlu enerji tədbirlərindən birinə çevrilib. Dövlətimizin başçısının "Bakı Enerji Həftəsi"nin açılış mərasimində iştirakı tədbirin yüksək statusunu və əhəmiyyətini vurğulayır**

## Enerji məsələsinin "yenidən normal məcraya" qaytarılmasında ABŞ liderinin xüsusi rolu

Azərbaycan Prezidenti çıxışında "Bakı Enerji Həftəsi"nin fəaliyyətinə önəm verən dünya liderlərinə təşəkkürünü ifadə edib. "Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm", - deyə dövlətimizin başçısı vurğulayıb.

Eyni zamanda, Prezident İlham Əliyev məmnunluq hissi ilə bildirib ki, enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür. Dövlətimizin başçısının bu məsələyə xüsusi diqqət çəkməsi təsadüfi deyil. Hər kəsə bəllidir ki, dünyada bəzi dairələr uzun müddət idi ki, neft və qaz mövzuları üzərindən manipulyasiyalara əl atırdılar. Heç bir əsaslı dəlil-sübut göstərilmədən bəyan edilirdi ki, guya dünyanın bütün problemləri qazıntı yanacağı ilə bağlıdır. Prezident İlham Əliyevin vurğuladığı kimi, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar.

Əslində, belə manipulyasiyaların yeganə məqsədi karbohidrogen ehtiyatları ilə zəngin olan dövlətlərə təzyiq göstərmək idi. Bəlli dairələr özlərinin çirkin məqsədlərini pərdələmək məqsədilə ekoloji problemləri, qlobal istiləşməni bəhanə gətirirdilər. Ağ Evdə administrasiya dəyişikliyindən sonra belə əsassız iddiaların səngidiyi müşahidə edilir. "Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən əla hadisə oldu, çünki hamımız bilirik ki, hətta bəzi iri neft şirkətləri dırnaqarası müasir trendə uyğun olmaq xatirinə öz adlarını dəyişirdilər. Lakin reallıq tamamilə fərqlidir. Dünya faydalı qazıntı olmadan yaşaya bilməz. Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Ümumiyyətlə, Ağ Evdə administrasiya dəyişikliyindən sonra Azərbaycan və ABŞ liderləri arasında səmimi münasibətlər formalaşıb. Dövlət başçılarının müntəzəm qaydada məktublaşmaları və bir-birlərinin ünvanına xoş sözlər ifadə etmələri bunun əyani təsdiqidir. Xüsusi olaraq vurğulayaq ki, ABŞ lideri Azərbaycan Prezidenti İlham Əliyevə xitab edərkən bir qayda olaraq "Böyük Lider" ifadəsini dilə gətirir ki, bu da Azərbaycanın dövlət başçısının dünyada artan nüfuzunun daha bir təsdiqidir. Xatırladaq ki, Ağ Evin yeni administrasiyasının ölkəmizə səmimi münasibətinin davamı olaraq Prezident İlham Əliyevin ötən ilin avqustunda ABŞ-a işgüzar səfəri çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Bundan sonra tərəflər arasında bir neçə raundda ətraflı müzakirələr aparılıb və çoxvektorlu əməkdaşlıq istiqamətləri müəyyənləşdirlib. Cari ilin fevral ayında isə məntiqi sonluğa nail olunub - ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vensin ölkəmizə səfəri çərçivəsində iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyası sənədi imzalanıb. Bu sənəd çox doğru olaraq ikitərəfli münasibətlərdə yeni dövrə keçid kimi dəyərləndirilir.

***Mübariz ABDULLAYEV***

# Uğurlu enerji strategiyası...





## Azərbaycanın milli maraqları tam təmin olunub, dünya ölkələrinin enerji təminatı güclənib

“Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi “Caspian Oil and Gas”, 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi “Caspian Power” və 31-ci “Baku Energy Forum”un rəsmi açılış mərasimində çıxış edən Prezident İlham Əliyev iqtisadi müstəqilliyin möhkəmlənməsində və inkişafın təmin edilməsində enerji amilinin mühüm əhəmiyyətinə toxundu. Bəyan edildiyi kimi Ulu Öndərin əsasını qoyduğu enerji strategiyası uğurlu model kimi həm Azərbaycanın milli maraqlarının tam təmin edilməsində, həm də dünya ölkələrinin enerji təminatında mühüm rol oynayıb. Ölkəmizin iqtisadi mənzərəsi köklü şəkildə dəyişib, bu, uğurlu enerji siyasətinin həyata keçirilməsi nəticəsində 1990-cı illərin əvvəllərinin Azərbaycanı ilə müasir Azərbaycan arasındakı fərq aydın görünməkdədir.

**Dayanıqlı inkişafı təmin edən siyasət**

Dövlət başçısı neft-qaz gəlirlərinin düzgün və səmərəli idarə edilməsi sayəsində əldə edilən nəticələrə toxunaraq milli gəlirlərin sosial infrastruktur, təhsil, səhiyyə, ordu quruculuğu və iqtisadi inkişafa möhkəm töhfə verdiyini xatırlatdı. Enerji layihələri işə düşdükdən sonra Azərbaycan böyük maliyyə vəsaitləri əldə etməyə başladı və dayanıqlı inkişaf arxitekturası formalaşdı. Xüsusilə də 2003-cü ildən sonrakı dövrdə Azərbaycan iqtisadiyyatı həm struktur, həm də inkişaf meyarları baxımından yeni inkişaf mərhələsinə qədəm qoydu, regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi, regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə edilməsi kənd təsərrüfatı məhsullarının, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin istehsalına əhəmiyyətli təkan verdi. Eyni zamanda, Dövlət proqramlarının icrası etibarlı biznes mühitinin möhkəmlənməsinə və milli sahibkarlıq təbəqəsinin artan gücü sayəsində ixracyönümlü məhsul istehsalının və qeyri-neft iqtisadiyyatında əlavə dəyəri formalaşdıran mənbələrin böyüməsinə, bölgələrdə ən müasir rəqabətədavamlı istehsal, xidmət və emal müəssisələrinin sayının artırılması sayəsində əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə və nəticə etibarilə sosial rifahın güclənməsinə və yoxsulluğun səviyyəsinin azalmasına səbəb olub.

**Enerji gəlirləri iqtisadi müstəqilliyimizi möhkəmləndirib**

Milli və suveren institutun - Dövlət Neft Fondunun yaradılması gəlirlər toplanaraq investisiyayönümlü olmasını təmin etdi, həmin vəsaitlər xarici aktivlərə yatırılaraq qorunur və ölkə iqtisadiyyatına müəyyən edilmiş qaydalar (büdcə qaydası) çərçivəsində transfert edilir. Eyni zamanda, bu uzaqgörən siyasət fiskal və büdcə qaydalarını tənzimləməklə, iqtisadiyyatı neftin qiymətindəki kəskin dalğalanmalardan qorumaq üçün güclü immunitet sayılır. Həmçinin büdcə qaydası vasitəsilə neft gəlirlərindən asılılıq mərhələli şəkildə azaldılır və qeyri-neft sektorunun inkişafı prioritetləşdirilir. Habelə neft gəlirləri insan kapitalına investisiya edilir, təhsil, elm, səhiyyə və innovasiya sektorlarının inkişafına təkan verir. Bir sözlə, mükəmməl enerji siyasəti bilik və texnologiyaya əsaslanan iqtisadiyyata transformasiyanı təmin etməkdədir.

Sözsüz ki, artan maliyyə imkanları Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsi ilə yanaşı, ölkənin bir nömrəli müqəddəs vəzifəsi olan işğaldakı torpaqların düşmən tapdağından azad edilməsində də əsaslı rol oynayıb. Belə ki, son 20 ildə təkcə hərbi-müdafiə xərcləri 38 dəfəyə yaxın artıb. 2003-cü ildə 150 milyon manat olan hərbi xərclərin büdcədəki payı 2025-ci ildə 7 milyard manatı üstələyib. Məhz bu güclü iqtisadi-maliyyə arxitekturası üzərində rəşadətli Ordu qurulmuş və 44 günlük Vətən müharibəsində parlaq Qələbə qazanılmış, 2023-cü ilin sentyabr ayında bir günlük lokal antiterror əməliyyatları nəticəsində münaqişənin son akkordu da tamamlandı.

**Ən yaxşı investisiya reytinqinə malik ölkələr qrupunda**

Bu siyasətin digər bir uğuru Azərbaycanın iqtisadi göstəricilərinin daim artımının dinamikasının yüksəlməsidir. İnkişafın sosial sahəyə təsirləri sayəsində yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Bu amili aparıcı beynəlxalq reytinq agentliklərinin təsdiqlədiyi reytinqlərdə də görmək mümkündür. Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbediciliyi yüksəlib. “Standart & Poor’s” və “Moods” reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq “BB+” səviyyəsinə qaldırıb. Eyni zamanda “Fitch Ratings” agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini “pozitiv” proqnozu ilə “BBB” səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investitorlarının daim diqqət mərkəzindədir. Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik “Top-7”qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir. Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə 2024-cü ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub.

**Strateji ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir**

Unikal enerji idarəetməsi Azərbaycanın milli yığım potensialının artmasında da mühüm rol oynayıb. Dövlət Neft Fondu və Mərkəzi Bankda toplanmış ehtiyatların həcmi hazırda 85 milyard dollara çatıb. Dövlət Neft Fondu hazırda dünyanın ən nəhəng suveren fondları, kapital institutları ilə sıx əməkdaşlıq edir. Dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan ABŞ-ın “Brookfield Asset Management” və “Brookfield” şirkətləri ilə uzun əməkdaşlıq münasibətləri investisiya nüfuzunun göstəricisidir. Habelə Amerikanın “Neuberger Berman” şirkəti ilə səmərəli tərəfdaşlıq quran Dövlət Neft Fondunun müasir investisiya alətləri tətbiq etməsində “Neuberger Berman”in təcrübəsi mühüm əhəmiyyət kəsb edir.

DNF Avrozona, ABŞ, Asiya və digər qlobal bazarlarda öz investisiya siyasətini şaxələndirərək Azərbaycanın milli gəlirlərinin artmasında mühüm rol oynayır. Dünyada baş verən mürəkkəb geoiqtisadi proseslər fonunda təmkinli sərmayə siyasəti yürüdərək məcmu aktivlərini artırmaqdadır. Hazırda fondun kapital porfelinin əhəmiyyətli hissəsi qlobal bazarlarda müxtəlif maliyyə alətlərinə, o cümlədən, səhm, qızıl, daşınmaz əmlak və infrastruktur kimi müxtəlif sahələrə yönəldilib.

Bu gün Azərbaycanın strateji ehtiyatları xarici borcu 18 dəfədən çox üstələyir. Bu gün xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur.

Ümumilikdə, Bakı Enerji Forumu enerji sahəsində dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi, yeni ideyaların müzakirə olunması və bu sahədə real, perspektivə hesablanan addımların atılmasına gətirib çıxaracaq.

*E.CƏFƏRLİ*

# 907-ci düzəliş yenidən dayandırıldı...

## Prezident təşəkkür etdi



Azərbaycan Prezidenti İlham Əliyev Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandumla bağlı sosial şəbəkə hesablarında paylaşım edib. “Möhtərəm Prezident Donald Tramp, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm”, - deyə paylaşımda vurğulanır.




August 8, 2025

Presidential Determination
No. 2025-08

MEMORANDUM FOR THE SECRETARY OF STATE

SUBJECT: Extension of Waiver of Section 907 of the FREEDOM Support Act with Respect to Assistance to the Government of Azerbaijan

By the authority vested in me as President by the Constitution and the laws of the United States of America, including title II of the Foreign Operations, Export Financing, and Related Programs Appropriations Act, 2002 (Public Law 107-115), I hereby determine and certify that extending the waiver of section 907 of the FREEDOM Support Act (Public Law 102-511) with respect to Azerbaijan:

- is necessary to support United States efforts to counter international terrorism; or
- is necessary to support the operational readiness of United States Armed Forces or coalition partners to counter international terrorism; or
- is important to Azerbaijan's border security; and
- will not undermine or hamper ongoing efforts to negotiate a peaceful settlement between Armenia and Azerbaijan or be used for offensive purposes against Armenia.

Accordingly, I hereby extend the waiver of section 907 of the FREEDOM Support Act.

You are authorized and directed to publish this determination in the Federal Register and to provide this determination and the Memorandum of Justification to the appropriate committees of the Congress.

**Azərbaycan - ABŞ münasibətlərində itirilmiş illər**

Dövlətlər arasında münasibətlər beynəlxalq hüquq və qarşılıqlı maraqlar əsasında tənzimlənməlidir. Azərbaycan beynəlxalq birliyin suveren aktorudur. Ölkəmiz heç bir güc mərkəzinin diqtəsi ilə oturub durmur, sırf milli maraqlara əsaslanan siyasət həyata keçirir. Təbii ki, böyüklüyündən, kiçikliyindən asılı olmayaraq digər dövlətlərin hüquq və maraqlarına hörmətlə yanaşmaq da Azərbaycanın siyasətinin prioritetləri sırasında yer alır. Ölkəmiz beynəlxalq prinsiplərə əsaslanan belə yanaşmanı həmçinin özünə münasibətdə görmək istəyir.

Təəssüf ki, Ağ Evin bundan əvvəlki administrasiyası dönəmində Vaşingtonun Azərbaycanla münasibətləri məhz qarşı tərəfin, necə deyərlər, ərköyünlüyü səbəbindən bu çərçivədən kənara çıxırdı. İkitərəfli əlaqələrdə geridönüş baş vermişdi. Təsadüfi deyildir ki, dövlətimizin başçısı əvvəlki administrasiya dövründəki dörd ili Azərbaycan - ABŞ münasibətləri kontekstində itirilmiş illər kimi qiymətləndirib. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan münasibətlərinin girovuna çevrilmişdi. Azərbaycan beynəlxalq hüquqdan kənar addım atmamışdı. Sadəcə 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında böyük zəfərlər qazanmaqla ərazi bütövlüyünü və suverenliyini təmin etmişdi. Bununla respublikamız ədalətin və BMT-nin 30 il ərzində yerinə yetirilməyən müvafiq qətnamələrinin icrasını təmin etmişdi. Biz ərazi bütövlüyümüzün və suverenliyimizin pozulması faktı ilə barışa bilməzdik və barışmadıq da.

Təcavüzkarın cəzalandırılması ABŞ kimi güc mərkəzi tərəfindən alqışlanmalı idi. Bəs bunun əvəzində biz Bayden-Blinken administrasiyasında hansı davranışları gördük? Sualın cavabı təəssüf doğurur. Erməni lobbisinin girovluğunda qalan qoca Baydenin komandası sözün əsl mənasında ikibaşlı oyun oynayırdı. Ağ Evdən Konqresə, Senata Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsi ilə bağlı siyasi sifarişlər verilirdi. Qəbul olunan qətnamələrdə bir qayda olaraq Azərbaycan əsassız ittihamlara tuş gəlirdi. Respublikamızla bağlı qəbul olunan qətnamələrin məzmunu birbirini təkrarlayırdı. Məsələn, Azərbaycan ermənilərin Qarabağdan Ermənistana köç etmələrinə görə günahlandırılırdı. Halbuki, bizim tərəfdən Qarabağın erməni əhalisinə hansısa bir təzyiq göstərilməmişdi. Onlar Ermənistana könüllü qaydada köç etmişdilər. Digər bir əsassız tələb Bakıda saxlanılan separatçıların azadlığa buraxılması ilə bağlı idi. Burada da Bayden administrasiyası yanlış mövqedə idi. Dövləti cinayətə yol vermiş, minlərlə insanın ölümünə, itkin düşməsinə rəvac vermiş separatçıların sərbəst buraxılması heç bir sağlam məntiqə sığmasa da, Bayden administrasiyası bunu Bakıdan tələb etməyə özündə cəsarət tapırdı. Beləliklə də, bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial Bayden administrasiyası dönəmində demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı.

**907-ci düzəlişin Azərbaycan Prezidentinin iştirakı ilə dondurulması rəmzi məna daşıyır**

Müstəqil Azərbaycanla ABŞ arasında münasibətlərdən bəhs edərkən istər-istəməz yada həm də “Azadlığa dəstək aktı”na bədnam 907-ci düzəliş düşür. Konqres tərəfindən 1992-ci ildə qəbul edilmiş “Azadlığa dəstək aktı” qanunu sosialist sisteminin dağılmasından sonra öz müstəqilliyini elan etmiş dövlətlərə ABŞ tərəfindən yardımın göstərilməsini ehtiva edib. Lakin 1992-ci ilin oktyabr ayında ABŞ-da erməni lobbisinin təsiri altında qəbul olunan “Azadlığa dəstək aktına 907-ci düzəliş” adlı sənəd Vaşington-Bakı münasibətlərinin inkişafında mənfi rol oynayıb.

Prezident İlham Əliyev müsahibələrinin birində 907-ci düzəlişin tarixinə qısa ekskurs edib, onun bədnam mahiyyətinə bir daha diqqət çəkib. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşərək qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir. O vaxt Azərbaycan qaçqınların sayı çox, iqtisadiyyatı isə bərbad vəziyyətdə olan kasıb ölkə idi. Nəticədə, biz sanksiyalar altında olan yeganə keçmiş Sovet İttifaqı respublikası idik. Sonra 2001-ci ildə bu sanksiyalar dayandırıldı, çünki ABŞ hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı var idi. Biz isə çox vacib nəqliyyat yollarını, “Şimal Paylayıcı Şəbəkə” adlanan əlaqəni təmin etdik. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar, 2023-cü ilə qədər.

Həmin tarixdən sonra bədnam düzəlişin dayandırılmaması bizim üçün böyük şok oldu, çünki Bayden administrasiyasından belə bir yanaşma gözləmirdik. Bayden administrasiyası bütün dünyanın gözü qarşısında Əfqanıstandan qaçdığı dövrdə buna əl atdı. Bundan sonra bizə qarşı sanksiyalar yenidən qüvvəyə mindi. Bu, yəqin ki, Azərbaycana mənfi münasibətin və nankorluğun zirvəsi idi. Əslində, bu, Bayden administrasiyası ilə onların hakimiyyətinin sonuna qədər düzəlməyən əlaqələrimizin ciddi şəkildə pisləşməsinə səbəb oldu.

İndi Azərbaycan güclü dövlətdir. İqtisadiyyatını inkişaf etdirib, ölkəmizin beynəlxalq maliyyə qurumlarının dəstəyinə heç bir ehtiyacı yoxdur, öz problemlərimizi özümüz həll edirik. Belə bir vəziyyətdə 907-ci düzəlişin dondurulmasına və “Azadlığa dəstək aktı” çərçivəsində respublikamıza ABŞ-dan yardım ünvanlanmasına bir o qədər də böyük ehtiyac yoxdur. Prezident İlham Əliyev ötən ilin avqustunda ABŞ-a səfəri çərçivəsində 907-ci düzəlişin dayandırılmasının rəmzi məna daşıdığını bildirib. “Əlbəttə ki, “Azadlığa dəstək aktı”na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi məna daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Budəfəki memorandum Ağ Evdə administarsiya dəyişikliyindən sonra D.Trampın bədnam 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə imzaladığı ikinci sənəddir. Ümid edirik ki, ikitərəfli münasibətlərin indiki ruhuna uyğun gəlməyən bu bədnam düzəliş yaxın perspektivdə birdəfəlik tarixin arxivinə göndəriləcək.

*MÜBARİZ*

# İqtidar-müxalifət siyasi dialoqu davam edir

## Prezident Administrasiyasında Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayevlə görüş keçirilib



Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayevlə Prezident Administrasiyasında görüş keçirilmişdir.

Bu barədə məlumat redaksiyamıza Partiyanın Mətbuat xidməti tərəfindən verilmişdir.

Cari ilin 2 iyun tarixində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə keçirilmiş görüş zamanı ölkənin daxili siyasi həyatı və partiyaların fəaliyyəti ilə əlaqədar geniş fikir mübadiləsi aparılmışdır.

Ölkədə nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyəti, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması, "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində görülən misilsiz işlər, infrastruktur layihələri, habelə müxtəlif sahələrin inkişafı ilə bağlı dövlətin konkret təşəbbüsləri ətrafında müzakirələr aparılmışdır. Görüş çərçivəsində həmçinin informasiya məkanında vaxtaşırı şəkildə təkrarlanan qərəzli təxribatlar ilə mübarizədə fəal mövqeyin nümayişinin zəruriliyi də xüsusi olaraq vurğulanmışdır.

Eyni zamanda bildirilmişdir ki, Milli Məclisdə təmsil olunan siyasi partiyaların qanunvericilik işində nümayiş etdirdiyi fəallıq təqdirəlayiqdir. Qeyd olunmuşdur ki, bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan iqtidar-müxalifət siyasi dialoq ölkədə milli həmrəyliyin qorunması prosesində müstəsna əhəmiyyətə malikdir.

Partiya sədri vurğulamışdır ki, sağlam əməkdaşlığın nəticəsində fəal siyasi instituta çevrilən siyasi partiyaların ictimai müzakirələrdə iştirakı ölkənin dayanıqlı demokratik ənənələrinin formalaşması prosesinə də müsbət təsir edir.

Razi Nurullayev rəhbərlik etdiyi Milli Cəbhə Partiyası tərəfindən həyata keçirilən layihələr haqqında geniş məlumat verərək qeyd etmişdir ki, bundan sonra da dialoq ənənələrə sadiq qalacaq və milli maraqlara xidmət edən bütün təşəbbüslərə dəstək göstərəcəkdir.

Prezident Administrasiyasının rəsmisi Milli Cəbhə Partiyası tərəfindən həyata keçirilən layihələrin, Partiyanın dövlətçilik mövqeyinin siyasi dialoq prosesində müsbət qarşılandığını bildirmiş və Partiyanın işinə uğurlar arzulamışdır.

# "Heydər Əliyev məktəbi" layihəsinin açılış mərasimi keçirilib















İyunun 1-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində təşkil olunan "Heydər Əliyev məktəbi" layihəsinə start verilib.

Əvvəlcə Gəncə şəhərində müasir müstəqil Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilib.

Göygöl rayonu ərazisində yerləşən Yaylaq düşərgəsində keçirilən layihənin açılış mərasimində Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən YAP Gəncə şəhər təşkilatının sədri, partiyanın İdarə Heyətinin üzvü Bayram Aslanov layihənin ilk gününün "Dövlət gənclər siyasəti" mövzusuna həsr olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, "Heydər Əliyev məktəbi"nin təşkil olunmasında məqsəd partiya üzvlərinə Heydər Əliyev irsini hərtərəfli çatdırmaqdır. B.Aslanovun sözlərinə görə, Dağlıq Şirvan və Şəki-Zaqatala regionlarından olan gənclərin iştirak etdiyi layihə çərçivəsində onların sosial fəallığının artırılması, liderlik bacarıqlarının inkişaf etdirilməsi, asudə vaxtlarının səmərəli təşkili məqsədilə dəyirmi masalar, maarifləndirici görüşlər, intellektual oyunlar, müxtəlif əyləncəli proqramlar və ekskursiyalar təşkil olunacaq.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov Azərbaycan gənclərinin milli ruhlu vətəndaş kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. O qeyd edib ki, Ulu Öndərin əsasını qoyduğu dövlət gənclər siyasəti uğurlu inkişaf konsepsiyasının əsas dayağına çevrilib və Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir: "Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən gənclərin qəhrəmanlığı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Bu gün ölkə gəncləri siyasi, iqtisadi, elm, innovasiya və digər sahələrdə Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edir və dövlət bayrağımızı daha da yüksəklərə qaldırırlar", - deyə Ş.İsmayılov vurğulayıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin uğurlu gənclər siyasəti nəticəsində ölkədə vətənpərvər, milli dəyərlərə bağlı, müasir düşüncəli gənc nəsil formalaşıb. O bildirib ki, müasir gənclər həm elmi biliklərə yiyələnir, həm də milli-mənəvi dəyərlərə sadiqliyini qoruyurlar.

N.Bayramov vurğulayıb ki, ölkədə gənclərin hərtərəfli inkişafı üçün yaradılan imkanlar onların peşəkar bilik və bacarıqlarını artırmalarına, beynəlxalq təcrübə əldə etmələrinə və müxtəlif sahələrdə nailiyyətlər qazanmalarına şərait yaradır: "Müasir Azərbaycan gəncliyi daim öz üzərlərində işləməli, məsuliyyətli, yenilikçi olmalı və təşəbbüskar davranmalıdırlar. Ən vacib xüsusiyyətlərdən biri isə liderlik bacarıqlarıdır. Bu bacarıqlar gənclik dövründə "Heydər Əliyev məktəbi" kimi layihələrdə və müxtəlif ictimai fəaliyyətlərdə iştirak etməklə formalaşır".

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov Azərbaycanın müstəqillik tarixində müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsindən bəhs edib. O bildirib ki, bu gün Azərbaycan gəncliyi Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində daha güclü və qüdrətli bir ölkədə yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələrdə mühüm nailiyyətlər əldə edib və gənclər üçün geniş imkanlar yaradılıb. Dövlət başçısının da vurğuladığı kimi, Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Bu gücün əsasında Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsi, xalqın dövlətə olan inamı və gənclərin Vətənə sədaqəti, milli dəyərlərə bağlılığı dayanır.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsi müdirinin müavini Rafael Gülməmmədov Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verdiyini deyib. O qeyd edib ki, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi xətt nəticəsində hazırda YAP-ın sıralarında on minlərlə gənc təmsil olunur: "Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ideoloji xətti əsas götürərək cəmiyyətin müxtəlif təbəqələrini, xüsusilə də gəncləri öz ətrafında birləşdirərək ölkənin gələcək inkişafına xidmət edən layihələrə dəstək verir. Təsadüfi deyil ki, "Heydər Əliyev məktəbi" layihəsinin iştirakçıları da məhz milli dəyərlərə bağlı, vətənpərvər və prinsipial mövqeyi ilə seçilən Azərbaycan gəncləridir".

Çıxış edən gənc partiya fəalları Nazpəri Rzayeva və Nuranə Mirzəyeva gənclərin Heydər Əliyevin zəngin siyasi və mənəvi irsdən bəhrələnmələrinin onların vətənpərvər və məsuliyyətli vətəndaş kimi yetişməsində mühüm rol oynadığını diqqətə çatdırıblar.

Açılış mərasimindən sonra gənclər arasında komanda şəklində idman oyunları keçirilib, əyləncə proqramları təşkil olunub.

# Bakı-Tbilisi-Qars dəmir yolu xətti modernləşdirilmədən sonra istifadəyə verilib

Gürcüstanın Axalkalaki dəmir yolu və logistika kompleksində regionun mühüm yükdaşıma marşrutlarından biri olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin modernləşdirilmədən sonra açılışı olub.

Tədbirdə Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu, habelə Qazaxıstan və Özbəkistanın dəmir yollarının rəsmi şəxsləri, dəmir yolu və liman administrasiyalarının rəhbərləri iştirak ediblər.

Baş nazir İrakli Kobaxidze, nazirlər Rəşad Nəbiyev, Abdulkadir Uraloğlu, Mariam Kvrivişvili çıxış edərək Orta Dəhlizin inkişaf etdirilməsindən, ölkələr arasında iqtisadi ticarət əlaqələrinin inkişafında BTQ-nin rolundan danışıblar.

Qeyd edək ki, cari il mayın 18-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin iştirakı ilə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili tərəfindən Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu imzalanıb. Bu sənədlə BTQ dəmir yolu layihəsi üzrə modernləşdirmə işlərinin tamamlanması və yekun qəbulu təsdiq edilib.




Məlumat üçün bildirək ki, 2024-cü ildə ADY tərəfindən Orta Dəhlizin mühüm seqmentlərindən olan BTQ-nin imkanlarının artırılması məqsədilə xəttin Gürcüstan ərazisindən keçən 184 kilometrlik hissəsində modernləşdirmə işləri aparılıb.

5 mərhələdən ibarət layihə 13 dəmir yolu stansiyası, 55 körpü, 8 dartı yarımstansiyası, 320 bina və süni mühəndis qurğularını (körpü, yolötürücü, keçid və s.) əhatə edib. Layihə çərçivəsində 30,3 km uzunluğunda yeni dəmir yolu xətti, təkər cütlərinin dəyişdirilməsi stansiyası, 153,1 km uzunluğunda mövcud dəmir yolunun reabilitasiya və rekonstruksiyası üzrə işlər həyata keçirilib. Görülmüş işlər nəticəsində BTQ-nin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb, bu xətt Çin və Mərkəzi Asiyadan Avropaya doğru daha funksional quru marşrutlardan birinə çevrilib.

# Zəngəzur dəhlizinin inkişafında yeni mərhələ...

## Naxçıvanla maneəsiz keçid təmin olunacaq

Zamanında qalib Azərbaycanın təşəbbüsü ilə gündəmə gələn Zəngəzur dəhlizinin (TRIPP marşrutu) reallaşması istiqamətində daha bir mühüm addım atılıb. Söhbət Amerika Birləşmiş Ştatlarının (ABŞ) dövlət katibi Marko Rubionun bu günlərdə Ermənistana baş tutan səfəri çərçivəsində Ermənistanla ABŞ arasında müvafiq çərçivə sazişinin paraflanmasından gedir. Bununla da sözügedən bağlantı ilə bağlı yeni bir mərhələnin başladığı fikrini ifadə etmək mümkündür. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, ölkəsi ilə ABŞ arasında TRIPP layihəsi üzrə paraflanmış strateji əməkdaşlıq haqqında çərçivə sazişi bir neçə həftə ərzində imzalanacaq. Sənədin mətni siyasi səviyyədə tam razılaşdırılıb, lakin hər iki ölkədə başa çatdırılmalı olan texniki prosedurlar qalmaqdadır. "Bu prosedurlar bir neçə həftə ərzində başa çatdırılacaq və biz yekun sənədi imzalayacağıq", - deyə nazir əlavə edib.

A.Mirzoyan qeyd edib ki, hazırlıq çərçivəsində daha bir sıra sənədlərin, xüsusən də TRIPP şirkətinin nizamnaməsinin imzalanması zəruridir. Onun sözlərinə görə, layihəyə müxtəlif ölkələr və şirkətlər maraq göstərir. Fikirlərinə davam edən nazir bildirib: "Bir sıra ölkələr müxtəlif istiqamətlərdə, xüsusən də materialların, relslərin tədarükü, tikinti və proqram təminatı üzrə layihəyə maraq göstərir. Biz artıq bir sıra tərəfdaşlarla ilkin müzakirələr və fikir mübadiləsi aparmışıq, lakin mən hələlik hər hansı nəticə çıxarmaq və ya adlar çəkmək istəməzdim".

### Vaşinqtonda əldə olunan mühüm razılaşma

ABŞ dövlət katibi M. Rubio Ermənistan XİN başçısı Ararat Mirzoyanla keçirdiyi mətbuat konfransında bildirib ki, "Tramp marşrutu" layihəsi Cənubi Qafqaz regionunda sülh və firavanlığın təmin edilməsinə yönəlib. Ekspertlər Ağ Evin TRIPP marşrutu (Zəngəzur dəhlizi) ilə bağlı fəallığını hazırkı geosiyasi və geoiqtisadi reallıqlar fonunda ABŞ-ın Cənubi Qafqaz regionuna, o cümlədən də Orta Dəhlizdə (Transxəzər marşrutu) artan marağı ilə əlaqədar olduğunu bildirirlər. Hazırda Şərqi Avropada Rusiya ilə Ukrayna arasında uzanan müharibə, Yaxın Şərqdəki gərginlik qlobal miqyasda təhlükəsiz bağlantıların önəmini heç vaxt olmadığı qədər artırıb. Xüsusilə də Hörmüz boğazında vəziyyətin qeyri-müəyyən qalması, burada su yolu ilə daşımaların məhdudlaşdırılması qlobal iqtisadiyyatda təchizat zəncirini pozub, bazarlarda neft və qaz qiymətləri artıb, aqrar sektorda kəskin karbamid qıtlığı yaşanır. Müşahidə edilən bu və ya digər proseslər dünya dövlətlərini alternativlər axtarışına sövq edir. TRIPP marşrutu (Zəngəzur dəhlizi) Orta Dəhlizin yeni bir seqmentini təşkil edəcək. Azərbaycanın da fəal üzvlərdən biri olduğu Transxəzər marşrutu hazırda dünyanın ikinci böyük iqtisadiyyatı sayılan Çinlə Avropa arasında etibarlı bağlantını təmin edir. Lakin təhdid riskləri ilə üz-üzə qalan bir sıra ənənəvi marşrutların funksionallığının azalması fonunda Orta Dəhlizin yüklənməsinin getdikcə artması müşahidə edilir. Belə olan halda şaxələnmənin zəruriliyi ön plana keçir. Zəngəzur dəhlizi (TRIPP marşrutu) məhz bu şaxələnməni təmin edəcək. Belə ki, Mərkəzi Asiyadan Azərbaycana ötürülən yüklər Gürcüstan istiqaməti ilə paralel şəkildə, Ermənistan və Naxçıvan üzərindən Türkiyəyə, oradan isə Avropaya çatdırılacaq. Bu marşrutda moderatorluğun təmin edilməsi ABŞ-a böyük iqtisadi və siyasi dividentlər vəd edir. Qeyd edək ki, ABŞ Ermənistanla birlikdə təsis olunacaq "TRIPP Development Company" (Tramp marşrutunun operatoru) şirkətində nəzarət paketini əldə edəcək. Verilən məlumata görə, Ermənistan "TRIPP Development Company"yə 49 illik müddətə layihənin inkişafı hüququnu verməyi nəzərdə tutur. Şirkətin səhmlərinin 74 faizinin ABŞ-ın, 26 faizinin isə Ermənistanın payına düşəcəyi nəzərdə tutulur. Razılaşmanın daha 50 il uzadılmasından sonra Ermənistanın payı 49 faizə qədər artacaq. Həmçinin bildirilib ki, səhmdarların strukturunda və ya son benefisiarlarda hər hansı dəyişiklik üçün ABŞ və Ermənistan hökumətlərinin əvvəlcədən razılığı tələb olunur.

TRIPP-in (Zəngəzur Dəhlizinin) inkişafı üzrə şirkət multimodal infrastrukturun planlaşdırılması, tikintisi, istismarı və xidməti, xüsusi layihə şirkətlərinin yaradılması, podratçılar və operatorlarla müqavilələrin bağlanması, gəlirlərin toplanması və generasiyası, eləcə də TRIPP marşrutunun (Zəngəzur Dəhlizinin) idarə edilməsi üçün müstəsna hüquq əldə edir.

Sənədə əsasən, Birləşmiş Ştatların layihənin həyata keçirilməsindən əldə edəcəyi faydalar bunlardır:

- ABŞ investisiyaları, biznesi və malları üçün yeni bazarların açılması;
- Xmmal, kritik minerallar və nadir torpaq metallarının ABŞ bazarlarına tədarükü üçün ticarət əlaqələrinin təmin edilməsi;
- ABŞ, Avropa və Asiya arasında ticarət marşrutlarının sayının artırılması, geosiyasi dəyişikliklərdən asılı olmayaraq, insanların və malların hərəkətinin təmin edilməsi və s.

Xatırladaq ki, TRIPP marşrutunun yaradılması ilə bağlı razılaşma ötən ilin avqustunda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Ağ Evdə baş tutan görüşdə əldə olunub. Vaşinqtonda aparılan müzakirələrin ən mühüm nəticələrindən biri məhz regionun kommunikasiyalarının blokdan çıxarılmasının razılaşdırılmasıdır. Bununla bağlı liderlərin imzaladığı Birgə Bəyanatda konkret müddəalar yer alıb.




### Yeni marşrutun region dövlətləri üçün önəmi - Azərbaycanın maraqları təmin olunacaq

Bütövlükdə, yeni marşrut optimal regional bağlantını təmin edəcək. O cümlədən Mərkəzi Asiya dövlətləri üçün yeni tranzit imkanları açılacaq. Rusiya və İranın Şimal-Cənub marşrutundan asılılığı azalacaq. Qeyd edək ki, respublikamızın ərazisində Şimal - Cənub marşrutu ilə Orta Dəhlizin bağlantısı təmin edilib. Beləliklə də İran və Rusiya da yeni marşrutdan faydalana biləcəklər. Qardaş Türkiyə üçün daha böyük həcmlərdə yük tranzitini həyata keçirmək imkanları yaranacaq.

Zəngəzur dəhlizinin (TRIPP marşrutunun ) yaradılması Ermənistan üçün də həyati əhəmiyyət daşıyır. Bu ölkə 30 il ərzində işğalçılıq siyasətinin girovluğunda qalıb və əslində dalan vəziyyətdə düşüb. Hazırda Ermənistanın geniş dünyaya çıxış yalnız dar Lars keçid məntəqəsi və İran üzərindəndir. Lars keçid məntəqəsi daşımalar üçün optimal marşrut sayıla bilməz. Çünki qış aylarında buradakı dağ silsilələrindən keçmək mümkünsüz hala gəlir və keçid bağlanır. Həmçinin yenə də geosiyasi amillərə və infrastruktur məhdudluğuna görə İran üzərindən keçən yollar da əlverişli deyil. Zəngəzur dəhlizinin (TRIPP marşrutunun ) yaradılması ilə Ermənistanla Türkiyə arasında məlum səbəblərdən bağlı olan sərhədlər açılacaq və bu ölkənin Avropaya asan çıxışı təmin olunacaq.

Eyni zamanda, TRIPP marşrutunda (Zəngəzur dəhlizində) Azərbaycanın maraqları təmin ediləcək. Burada söhbət ilk növbədə Vaşinqtonda imzalanan sənəddə də vurğulandığı kimi, Azərbaycan Respublikasının əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsindən gedir. Bu müddəa Azərbaycan üçün prinsipial önəm daşıyır. Respublikamız bəhs olunan məsələdə təkid etməkdə tam haqlıdır. Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz hissəsidir. Bu bölgə Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində respublikamıza qarşı başladığı işğalçılıq siyasətinə görə blokada şəraitinə düşdü. Artıq 30 ildən çoxdur ki, Naxçıvan əhalisi çətin vəziyyətdə qalıb.

Eyni zamanda, Zəngəzur dəhlizi (TRIPP marşrutu ) fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi (TRIPP marşrutu ) bu bağlantıda yeni və çox mühüm həlqə təşkil edəcək.

Azərbaycan bu amilləri nəzərə almaqla TRIPP marşrutunun (Zəngəzur dəhlizinin) mümkün qədər tez açılmasının tərəfdarıdır və buna güclü siyasi iradə sərgiləyir. Paralel şəkildə, ölkəmizin ərazisində Zəngəzur dəhlizi (TRIPP marşrutu) ilə bağlı infrastrukturun yaradılması istiqamətində qızğın iş gedir. Belə ki, nəzərdə tutulan avtomobil yolunun və dəmiryolunun tikintisi üzrə böyük iş həcmi yerinə yetirilib və layihələrin icrası hazırda son mərhələdədir. Onu da vurğulayaq ki, ölkəmiz Ermənistanla ABŞ arasında yeni marşrut üzrə çərçivə sazişinin razılaşdırılmasını alqışlayıb. "Dəmir yolu və avtomobil yolu infrastrukturuna investisiya qoymaqla nəqliyyat üçün yeni dəhlizlər açırıq". Bu barədə Prezident İlham Əliyev Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı bildirib. Şərq-Qərb dəhlizinin uğurla fəaliyyət göstərdiyini xatırladan dövlətimizin başçısı qeyd edib: "Şərq-Qərb dəhlizinin digər bir qolu olacaq Zəngəzur dəhlizi avqustun 8-də (2025-ci il - red.) Ağ Evdə ABŞ Prezidenti, Ermənistanın Baş naziri və mənim aramda imzalanmış sənədə əsasən mütləq inşa ediləcək".

### Zəngəzur dəhlizi enerji və rəqəmsal infrastruktur layihəsi kimidə strateji əhəmiyyət daşıyır

TRIPP marşrutunun (Zəngəzur dəhlizinin) özəlliyi ondadır ki, o, çoxfunksiyalı bağlantı kimi nəzərdə tutulur. Prezident İlham Əliyevin bildirdiyi kimi, TRIPP (Zəngəzur dəhlizi) təkcə nəqliyyat arteriyası kimi deyil, həm də enerji və rəqəmsal infrastruktur layihəsi kimi strateji əhəmiyyət daşıyır. Marşrutun enerji ölçüsü, ilk növbədə, bərpaolunan resursların ixracını hədəfləyir. Azərbaycan artıq günəş və külək enerjisi üzrə irimiqyaslı layihələr həyata keçirir, Xəzər dənizində külək potensialı Avropanın "yaşıl keçid" strategiyaları ilə uyğun gələn dəyərlər yaradır. TRIPP marşrutu (Zəngəzur dəhlizi) bu enerjinin regional bazarlarla yanaşı, Avropa istiqamətinə daşınması üçün yeni texniki imkanlar açə bilər. Yeri gəlmişkən, cari ilin əvvəlində Azərbaycan və ABŞ arasında bəhs olunan marşrut üzərindən elektrik enerjisinin nəqli və bu layihələr çərçivəsində ABŞ şirkətləri ilə əməkdaşlıq perspektivləri dəyərləndirilib. Müzakirələr ABŞ Ticarət Palatasının Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi biznes missiyası çərçivəsində energetika naziri Pərviz Şahbazovun rəhbərliyi ilə keçirilən dəyirmi masada aparılıb. Dəyirmi masada Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), "Azərenerji", "Azərişıq", "Azəristiliktəchizat", Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin təmsilçiləri iştirak ediblər.

Müzakirələrdə Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və Avropa arasında elektrik enerjisi dəhlizlərinin icrası dəyərləndirilib. ABŞ tərəfindən nümayəndə heyətinə "Apple", "Ardea Energy Technologies Inc.", "Ericsson AB", "ExxonMobil", "Herbalife", "Illumina", "Meta", "Visa", "Wabtec", "Baker Hughes", bp, "Boeing Global", "Honeywell", "J.P. Morgan", "Lummus Technology", "Marriott", "Mastercard", "Shell International", "Motorola Solutions", "Fuji Engineering", "Global Data Risk", "Hill International", "Lummus Technology", "Straife" və digər şirkətlərin rəhbər şəxsləri qatılıblar.

*Mübariz FEYİZLİ*

# Amritsar hadisələri...

## Bakı Təşəbbüs Qrupu Hindistan hökumətinin ayrı-seçkilik siyasətindən əziyyət çəkən icmaları bir araya gətirir

Azərbaycan müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları dəstəkləyir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib. Azərbaycan bu məsələdə daim prinsipial mövqe nümayiş etdirir və bəzi Qərb dövlətlərinin müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir.

Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib. Tədbirdə XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrinin nümayəndələri ədalət və azadlıq uğrunda apardıqları mübarizədə öz həmrəylik şəbəkələrini strukturlaşdırmaq məqsədilə Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəldilər.

Bakı Təşəbbüs Qrupu fəaliyyətə başladıqdan sonra neokolonializmdən əziyyət çəkən xalqların müdafiəsi istiqamətində davamlı işlər görür, bu məqsədlə çoxsaylı yerli və beynəlxalq konfranslar keçirir. Xatırladaq ki, 17-22 may tarixlərində Bakıda keçirilən BMT Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə mayın 19-da "Müstəmləkə idarəçiliyinin yaratdığı ədalətsizliklər və mənzil böhranı" mövzusuna həsr olunmuş tədbir təşkil edilib. Tədbir çərçivəsində konfrans iştirakçıları müstəmləkə və neokolonial idarəetmənin sosial-iqtisadi təsirlərini, urbanizasiya proseslərində yaranan struktur bərabərsizlikləri, mənzil təminatı sahəsində mövcud çağırışları, eləcə də bu problemlərin yerli əhali üzərində yaratdığı təsirləri müzakirə ediblər.

Mayın 20-də isə BTQ "Dekolonizasiya prosesində gənclərin şəhərsalmada rolu" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans BTQ-nin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrini təmsil edən gənclər tərəfindən yaradılan Qlobal Cənub Gənclər Platformasının ilk beynəlxalq tədbiri kimi yadda qalıb. Konfransda ilk dəfə olaraq BMT-nin Gənclər Ofisi də nümayəndələri ilə təmsil olunub. Tədbirdə indiki və keçmiş müstəmləkələri təmsil edən Qlobal Cənub Gənclər Platformasının üzvləri - gənc tədqiqatçılar, beynəlxalq hüquq sahəsində ixtisaslaşmış şəxslər, səhiyyə sahəsi üzrə mütəxəssislər, müstəqillik tərəfdarı olan siyasi partiyaların və təşkilatların nümayəndələri, gənclər təşkilatlarının rəhbərləri və universitet tələbələri daxil olmaqla ümumilikdə 22 ölkədən nümayəndə iştirak ediblər. Tədbirdə müxtəlif regionlardan olan gənclər arasında kolonializm və neokolonializmin davam edən təsirlərinə qarşı daha güclü və koordinasiyalı mübarizə mexanizmlərinin qurulması, Qlobal Cənub Gənclər Platformasının şəbəkələşməsi, beynəlxalq həmrəyliyin real və effektiv platformalara çevrilməsi məsələləri müzakirə edilib. Eyni zamanda, gənclərin daha yüksək səviyyədə təşkilatlanması, azlıqların üzləşdiyi sistemli ayrı-seçkilik və hüquq pozuntularının beynəlxalq gündəmin mərkəzinə gətirilməsi və bu problemlərə qarşı konkret, nəticəyönümlü beynəlxalq təşəbbüslərin irəli sürülməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, BTQ bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. İyunun 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə ölkəmizdə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş "İyun 1984, Amritsar hadisələri: Hindistanın etnik azlıqlara qarşı transmilli repressiyaları soyqırımı kontekstində" adlı beynəlxalq konfransın keçirilməsi də bunun göstəricisidir. Hindistan hökumətinin repressiv və sistemli ayrı-seçkilik siyasətindən əziyyət çəkən Dalit icmasının nümayəndələri də ilk dəfə olaraq ölkəmizdə keçirilən tədbirlərə qatılır. Tədbirin iştirakçıları arasında həmçinin, Siqh icmasının Kanada, Böyük Britaniya, Niderland, Almaniya, İsveçrə, Avstraliya və ABŞ-dakı nüfuzlu nümayəndələri, həmçinin beyin mərkəzlərinin rəhbərləri, insan hüquqları və etnik azlıqlar sahəsində fəaliyyət göstərən ekspertlər, Hindistan hökumətinin repressiv, irqçilik və təqib siyasətinin birbaşa qurbanı olan şəxslər də var.

Konfransda Hindistan hökumətinin etnik və dini azlıqlar, xüsusilə Siqh və Dalit diasporlarının nümayəndələrinə və onların ailə üzvlərinə qarşı həyata keçirdiyi transmilli repressiya və sistemli təqib siyasətinin beynəlxalq təşkilatların gündəliyində daimi saxlanılması məsələləri müzakirə mövzusudur. Eyni zamanda, repressiyalardan zərər çəkmiş diaspor təşkilatları arasında koordinasiyalı əməkdaşlığın gücləndirilməsi, transmilli təqiblərə qarşı ortaq hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi və beynəlxalq platformalarda birgə fəaliyyət istiqamətində fikir mübadiləsi aparılacaq. Bununla yanaşı, 1984-cü ilin iyun ayında Amritsar hadisələri zamanı Hindistan tərəfindən siqh icmasına və onların dini-mədəni dəyərlərinə qarşı həyata keçirilmiş silahlı hücumlar, zorakılıq aktları və minlərlə günahsız insanın həlak olması faktlarına beynəlxalq səviyyədə hüquqi qiymət verilməsi və Hindistan hökumətinin etnik azlıqların hüquqları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərinə əməl etməsi məsələləri ətrafında müzakirələr gündəmdədir.

Xatırladaq ki, 1984-cü ilin iyun ayının əvvəllərindən etibarən Hindistan hökuməti tərəfindən siqh icmasının müqəddəs dini məkanlarından biri hesab edilən Amritsardakı Harmandir Sahib (Qızıl Məbəd) kompleksinə qarşı həyata keçirilmiş silahlı hücum, icmanın dini-mənəvi dəyərlərinə, ibadət azadlığına və tarixi-mədəni irsinə qarşı yönələn dövlət səviyyəsində təşkil edilmiş zorakılıq aktıdır. Beynəlxalq qeyri-hökumət təşkilatlarının hesabatları, müstəqil mənbələr və şahid ifadələri əsasında toplanmış məlumatlara əsasən, silahlı hücum nəticəsində Amritsar və ətraf şəhərlərdə 8 minə qədər mülki şəxsin həyatını itirdiyi bildirilir.

Qeyd edək ki, bu ilin mart ayında Bakı Təşəbbüs Qrupu və "Siqh Federation International" tərəfindən birgə hazırlanmış "Sərhədləri aşaraq: Siqh diasporuna qarşı Hindistanın transmilli repressiyası" adlı hesabatda Hindistan hökumətinin ölkədən kənarda yaşayan diaspor nümayəndələrinə qarşı repressiv siyasəti və 1984-cü il Amritsar hadisələri barədə faktlar öz əksini tapıb.

*Nardar BAYRAMLI*



## Mövcud vəziyyət daşınmaz əmlak sektorunda yeni hüquqi mexanizmlərin hazırlanmasını labüd edir

# Sənədsiz evlər düyünü çözülə bilmir...

Hökuməti neçə illərdir ki, qayğılarından əsas məsələlərdən biri sənədsiz evlərin qanuni mülkiyyət hüququnun təmin edilməsi və "əmlak amnistisiyası"nın tətbiqidir. Bununla bağlı müvafiq qurumların, mütəxəssislərin iştirakı ilə qiymətləndirmələr aparılır və amnistisiyanın mexanizmi müəyyən edilir. Məsələ ondadır ki, amnistiyanın bütün sənədsiz evlərə şamil olunmaması barədə fikirlər meydana çıxıb və ekspertlər bu qəraın fərqli əmlaklara tətbiqini mümkün sayır. Belə ki, Əmlak Məsələləri Dövlət Xidməti daşınmaz əmlakın qeydiyyatının rəsmiləşdirilməsini təmin edən elektron portalı 2 ildir ki, istifadəyə verib və portalda ancaq müvafiq rəyi və icazəsi əsasında sənədləri qaydasında olan evlərin və mənzillərin portal üzərindən rəsmiləşdirilməsi, yəni mülkiyyət hüququna dair çıxarışın (kupça) alınması mümkündür. Tələblərə cavab verməyən digər evlərin isə rəsmiləşdirilməsi mümkün deyil. Bu isə amnistiya tətbiq olunduğu halda həmin evlər üçün ciddi çətinliklər yaradacaq.

Xidmət insan sağlamlığı və fəaliyyətinə təhlükə törədən ərazilərdə tikilmiş mənzilləri portal üzərindən rəsmiləşdirmədiyindən onlar tələblərə cavab verməyən əmlak hesab edilir. Həmin evlər mühəndis-kommunikasiya xətlərinin üzərində və yaxınlığında, yüksək gərginlikli elektrik xətlərinin altında, digər kommunikasiya qurğularının ətrafında, eləcə də dəmiryol xəttinin yaxınlığında inşa edildiyindən riskli hesab olunur. Onların bir qismi sovet dövründə, qalanı isə müstəqilliyin ilk illərində inşa edilib və əksəriyyətinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən müəyyənedici aktı yoxdur. Müvafiq icra hakimiyyəti orqanlarının təqdim etdiyi əsaslı hüquqi sənədlər olmadığı üçün evlərə mülkiyyət hüququna dair çıxarışın verilməsi də hüquqi addımlar atmağa mane olur.

**Hökumətin əmlak amnistiyası tapşırığı**

Ancaq hökumət müvafiq qurumlara qeyd edilən sahədə mövcud problemlərə baxmayaraq, müəyyən güzəştlərin tətbiqini tövsiyə edib və əmlak amnistiyası layihəsinin hazırlanmasını tapşırıb. Sənədsiz evlərlə bağlı 2018-2019-cu illərdə bütün mənzil-kommunal təsərrüfatı birlikləri və bələdiyyələr tərəfindən uçot işi aparılıb və zəruri məlumatlar rayon icra hakimiyyətlərinə təqdim olunub. Bu, həmin evlərin sənədləşdirilməsi istiqamətində mərkəzləşdirilmiş şəkildə müvafiq dəqiqləşdirmələrin aparılması və uçot məlumatlarının toplanması baxımından mühüm addım hesab edilir. Bununla da ən yüksək dövlət orqanlarının birgə koordinasiyası sayəsində sənədsiz evlərin qeydiyyatının aparılmasına başlanılıb.

Qiymətləndirmələrdən sonra Milli Məclisdə Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişikliklər edilib və yeni dəyişikliklər sənədsiz evlərin mülkiyyət hüququnun tanınması üçün bir sıra istisnaları nəzərə tutur. Belə ki, 2023-cü il martın 1-dək inşa edilmiş, etibarlılıq və təhlükəsizlik tələblərinə uyğunluğuna dair rəyi təqdim edən torpaq sahələrinin çıxarışla təmin edilməsinə icazə verilir. Əvvəllər hansı ildə inşa edilməsindən asılı olmayaraq tikintisi sözügedən məcəllənin tələblərinə uyğun aparılmayan, amma etibarlılığı və təhlükəsizliyi olan bütün qeyri-yaşayış sahələrinin istismarına icazə verilməsi nəzərdə tutulur. Ancaq insan sağlamlığı və fəaliyyətinə təhlükə törədən sahələrdə inşa edilmiş mənzillər üçün güzəştlərin tətbiqi istisnalıq təşkil edir. Həmin evlər kommunikasiya xətlərinin mühafizə zolağında inşa olunub, tikinti normativlərinin tələblərinə cavab vermədiyindən müvafiq icra orqanları ərazinin mühəndis-kommunikasiya zonalarının mürəkkəbliyini, elektrik xətti, qaz, su, kanalizasiya, digər kommunikasiya qurğularının yaşayış təhlükəliliyini nəzərə alaraq müəyyənedici aktın tərtib edilməsini qeyri-mümkün sayır. Bu baxımdan həmin evlərin sənədləşməsi qanunvericiliyin yumşaldılan və güzəşt tələblərinə də uyğun gəlmir. Bu tikililərin, ümumiyyətlə, sıfırdan heç bir sənədinin olmamasıdır, onların böyük bir qisminin heç ünvanı yoxdur, bir qismi isə SOCAR-ın, neftçıxarma trestlərinin, digər dövlət orqanlarının ərazisində yerləşir ki, buranın mühəndis qurğuları və planı tikintinin tanınmasına yol vermir.

**400 min evin sənədləşməsi mümkün olsa da...**

Qeyd edək ki, dövlət başçısının 2015-ci ildə imzaladığı müvafiq fərmana əsasən, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna dəyişikliklər edilib və daşınmaz əmlak üzərində hüquqların əldə edilməsi asanlaşıb. Amnistiya xarakteri daşıyan bu fərman əvvəllər hüquq müəyyənedici sənəd kimi tanınmayan bəzi sənədlərin rəsmi qeydiyyat üçün əsas kimi qəbul edilməsini təsbit edib. Bununla da, vətəndaşlara əmlaklarını leqallaşdırmaq üçün əsaslı imkanlar yaranıb. Nəticədə, on minlərlə əmlakın rəsmi qeydiyyata alınması təmin olunub. Dövlət arxivlərində mövcud olan sənədlər, habelə əvvəlki inventar bürolar və digər müvafiq qurumlar tərəfindən verilmiş sənədlər nəzərə alınmaqla, əmlakın leqallaşdırılması elektronlaşdırılıb. Ancaq hazırda 800 mindən çox evin sənədləşdirilməsi həll edilməmiş qalır ki, bunun da səbəbi yuxarıda vurğuladığımız kimi, həmin evlərin etibarlılıq və təhlükəsizlik tələblərinə uyğun olmamasıdır.

Dünya Bankı (DB) Qrupunun "Business Ready" hesabatının 2025-ci il üzrə Yol Xəritəsində nəzərdə tutulan tədbirlərdən biri daşınmaz əmlak sektorunda yeni hüquqi mexanizmlərin hazırlanmasıdır. Tövsiyəyə əsasən, sənədsiz tikintilərlə bağlı vəziyyətin tənzimlənməsi və əmlaka aid çıxarışların verilməsinin təmin olunmasıdır. DB-nin müəyyən etdiyi öhdəliklərə əsasən, Azərbaycanın müvafiq dövlət qurumu qeyd edilən məsələlər bağlı normativ hüquqi akt layihəsi və əlaqəli sənədləri hazırlayaraq aidiyyəti üzrə təqdim etməlidir.

Bu prosesdə iştirak edən Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, ticarət qeydiyyatı ilə bağlı dövlət qurumları, həmçinin ictimai fəallar və sahibkarlar birgə fəaliyyət çərçivəsində hüquqi akt layihəsinin hazırlanmasını yekunlaşdırmaqdadır. Layihə çərçivəsində daşınmaz əmlakın qeydiyyatı, biznes fəaliyyəti üçün icazələrin verilməsi, fərdi və hüquqi şəxslərin həyata keçirdiyi fəaliyyətlərin dövlət tərəfindən tənzimlənməsi kimi bir çox istiqamətlər nəzərdə tutulur.

**Sənədsiz evlər sığorta oluna bilərmi?**

Azərbaycanda minlərlə sənədsiz evin mövcudluğu həm vətəndaşlar, həm də maliyyə və sığorta sektoru üçün ciddi problemlər yaradır. Bu cür tikililər dövlət reyestrindən çıxarış almadığı üçün banklarda girov predmeti kimi qəbul edilmir, eyni zamanda alqı-satqı prosesində də çətinliklər ortaya çıxır. Məsələ ilə bağlı daha bir mühüm sual isə bu evlərin sığortalanması ilə bağlıdır, həmin tikililər icbari və ya könüllü sığorta predmeti ola bilərmi?

Azərbaycan Sığortaçılar Assosiasiyasının ekspert qrupunun üzvü Emil Ağabağırov bildirib ki, mövcud qanunvericiliyə əsasən sənədsiz evlərin sığortalanması mümkün deyil. Çünki sığorta müqaviləsinin bağlanması üçün tikilinin hüquqi statusu təsdiqlənməlidir. Bu isə yalnız müvafiq sənədlər - çıxarış və ya digər hüquqi əsaslar olduqda mümkündür. Bəzi hallarda vətəndaşlar torpaq sahəsinə dair sənədlərin kifayət edəcəyini düşünürlər. Lakin bu yanaşma da sığorta baxımından keçərli sayılmır. Torpağın çıxarışı və ya bələdiyyə sənədi olsa belə, bu həmin ərazidə yerləşən tikilinin sığortalanması üçün əsas vermir. Çünki sənəd torpağa aiddir, tikilinin özünə yox. Daşınmaz əmlakın sığortası üçün isə məhz tikilinin hüquqi sənədləri tələb olunur.

**BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunun tövsiyəsi**

Qeyd edək ki, sənədsiz ev problemi bir çox ölkədə də mövcuddur, qardaş Türkiyə, MDB və digər region ölkələrində fərdi evlərin mülkiyyət hüququ ilə bağlı rəsmiləşdirmə çətinlikləri qalır. Həmin ölkələrdə müxtəlif mexanizmlər hazırlanır. Ümumiyyətlə, hazırda dünyada mənzil təminatı ilə bağlı çox ciddi problemlərin mövcud olduğu dövrdə beynəlxalq institutlar ölkələrə müxtəlif tövsiyələr verir, vətəndaşların mənzil hüquqlarının qorunması üçün amnistiya, güzəşt, tətil və s. vasitələri tətbiq etməyə çağırır. Ötən ay Bakıda keçirilən Ümumdünya Şərhərsalma Forumunun (WUF13) 13-cü sessiyasında BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax da bu mövzuya diqqət çəkərək vurğuladı ki, qlobal mənzil böhranı dərinləşir, hazırda 300 milyon insan evsiz şəraitdə yaşayır, üç milyard insan qeyri-adekvat mənzil şəraitindədir və bir milyard insan qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır. Mənzil məsələsi hazırda qarşılaşdığımız şəhərsalma problemlərinin mərkəzində dayanır, ona görə də mənzil təminatı, dayanıqlı urbanizasiyanın aradan qaldırılmasında sosial təşviq mexanizmləri hazırlanmalıdır. O, dünyada insanların sağlam və təhlükəsiz şəraitdə yaşamasının vacibliyini vurğulayaraq mənzil hüquqları amilinə həssas yanşmağa çağırdı. Hökumətləri, müvafiq təşkilatları və yerli icmaları bu problemlərin həlli istiqamətində qərar qəbul edərkən müəyyən boşluqları nəzərə almağı, güzəştedici ssenarilər hazırlamağı tövsiyə etdi.

Bu baxımdan, ölkəmizin müvafiq qurumları sənədsiz evlərlə bağlı illərdir ki, düyünə düşmüş problemi həll etmək yönündə addımlar atmalı, amnistiya məsələsinin gerçəkləşməsinə çalışmalıdır.

*E.CƏFƏRLİ*



## AK Aİ-nin büdcə qaydalarını yumşalda bilər

Avropa Komissiyası (AK) Yaxın Şərqdəki münaqişənin yaratdığı enerji böhranını həll etmək üçün Avropa İttifaqı (Aİ) ölkələrinə büdcə güzəştləri etməyi nəzərdən keçirir.

"Report"un məlumatına görə, bu barədə "Bloomberg" mənbələrə istinadən xəbər verib.

Mənbələrin məlumatına görə, Avropa Komissiyası hərbi xərclər istisnalarına bənzər mexanizm tətbiq edə bilər ki, bu da üzv dövlətlərə Aİ-nin büdcə intizamını pozmadan enerji tədbirlərinə ÜDM-in təxminən 0,3 faizini ayırmağa imkan verəcək.

Qeyd olunur ki, hələlik yekun qərarlar verilməyib və mümkün mexanizmin təfərrüatları müzakirə edilir.

Avropa İttifaqının dövlət büdcəsi kəsirlərinin ÜDM-in 3 faizdən çox olmamasını nəzərdə tutan sərt büdcə qaydaları var, əks halda ölkələr sanksiyalarla üzləşəcəklər. Avropa Komissiyası əvvəllər hərbi xərcləri ÜDM-in 1,5 faizinə qədər artırmaq üçün müvəqqəti istisnalara icazə verib.

Eyni zamanda, "Bloomberg"in məlumatına görə, Avropa Komissiyası hazırda Aİ ölkələrinin Rusiya qazını almaqdan imtina etməsində israrlıdır.

## OPEC+ neft hasilatını gündə 188 min barel artıra bilər

Könüllü neft hasilatının azaldılması sazişində iştirak edən OPEC+ ölkələri iyul ayından etibarən istehsal kvotalarını gündə 188 min barel artıra bilər.

AZƏRTAC "Reuters" agentliyinə istinadla xəbər verir ki, qərar iyunun 7-də keçirilməsi planlaşdırılan yeddi OPEC+ ölkəsinin nümayəndələrinin görüşündə verilə bilər. Bunlar Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Küveyt, Əlcəzair, Qazaxıstan və Omandır.




Qərar təsdiqlənərsə, artım iyun ayında gündə 188 min barel təşkil edən düzəliş səviyyəsində qalacaq. Bu artım 2023-cü ildə tətbiq edilən könüllü hasilatın azaldılmasının tədricən aradan qaldırılmasının bir hissəsidir.

Bu arada, Hörmüz boğazında gəmiçilikdə davam edən fasilələr fonunda körfəzdən tədarükün azalması səbəbindən OPEC+ ölkələri tərəfindən faktiki neft istehsalı son aylarda azalıb. OPEC-in məlumatına görə, alyansın ümumi hasilatı fevral ayında gündə 42,77 milyon bareldən aprel ayında 33,19 milyon barelə düşüb.

Analitiklər qeyd edirlər ki, yeni kvota artımı OPEC+ alyansının davam edən geosiyasi risklərə və regiondan neft ixracında baş verən pozuntulara baxmayaraq, istehsalı tədricən artırmaq üzrə hazırkı kursunu qorumaq səylərinin siqnalı olacaq.




## "Financial Times": Vaşinqton Avropada əlavə nüvə silahlarının yerləşdirilməsi ehtimalını müzakirə edir

"Financial Times" qəzetinin çərşənbə axşamı verdiyi məlumata görə, ABŞ administrasiyası NATO-ya üzv olan Avropa dövlətlərində əlavə nüvə silahlarının yerləşdirilməsi ehtimalını müzakirə edir.

AZƏRTAC xəbər verir ki, qəzetin dərc etdiyi materialda müzakirələr barədə məlumat üç rəsmi şəxsə istinadla qeyd olunub: "ABŞ rəsmiləri nüvə silahına malik bombardmançı təyyarələrə ev sahibliyi edən mövcud altı ölkədən kənarda əlavə yerləşdirmələrə açıq olduqlarını bildiriblər".

Qəzet qeyd edib ki, bu addım nüvə zərbələri endirə bilən ABŞ-ın ikiqat qabiliyyətli təyyarələrinin (DCA) daha çox ölkəni əhatə etməsini nəzərdə tutur.

Məqalədə bildirilir ki, NATO-nun şərq cinahında yerləşən dövlətlər, o cümlədən Polşa və Baltikyanı ölkələr potensial olaraq DCA bazalarına ev sahibliyi etməkdə maraqlıdır.

"Reuters" agentliyi xəbəri dərhal təsdiqləyə bilməyib. Ağ Ev, Müdafiə Nazirliyi və NATO rəsmiləri də bu iddiaları hələ şərh etməyiblər. Pentaqonun siyasət rəhbəri Elbric Kolbi bundan əvvəl açıq şəkildə bildirib ki, ABŞ-ın Avropa müttəfiqləri ənənəvi silahlı qüvvələrdə liderliyi ələ alsalar da, Vaşinqton NATO üzvlərini qorumaq üçün nüvə silahlarından istifadə etməyə davam edəcək.

ABŞ Prezidenti Donald Tramp və onun köməkçiləri Avropa müttəfiqlərini hərbi sahəyə yetərincə maliyyə vəsaiti ayırmadıqlarına və özlərini müdafiə etmək üçün təkcə ABŞ-a güvəndiklərinə görə dəfələrlə tənqid ediblər.

## Paşinyan hakimiyyətinə xarici təzyiqlər güclənir

# Ermənistan seçki ərəfəsində: xaos, sui-qəsd cəhdi və revanşizm

Ermənistanda son aylarda müşahidə olunan siyasi gərginlik artıq normal seçki rəqabəti çərçivəsindən çıxaraq daha təhlükəli mərhələyə daxil olub. Hakimiyyət uğrunda mübarizə xüsusilə baş nazir Nikol Paşinyanla Rusiyayönümlü siyasi dairələr arasında açıq qarşıdurma formasını alıb. Seçkilərdən sonra ölkədə vəziyyət daha da gərginləşə, hətta daxili qarşıdurma səviyyəsinə çata bilər. Ermənistan cəmiyyətində uzun illərdir davam edən siyasi parçalanma, Qarabağ müharibəsindən sonra yaranmış böhran və xarici güclərin təsiri bu prosesi daha da dərinləşdirən əsas amillər hesab olunur. Müxtəlif siyasi düşərgələr artıq bir-birini dövlətçiliyə təhlükə yaratmaqda ittiham edir. Paşinyanın tərəfdarları keçmiş hakimiyyət komandalarını Moskvanın maraqlarına xidmət etməkdə günahlandırır.

Qeyd edək ki, bugünlərdə Paşinyana qarşı sui-qəsd cəhdində təqsirləndirilən şəxs saxlanılıb. Ermənistan İstintaq Komitəsinin mətbuat xidmətinin məlumatına görə, 2024-cü ildən bəri xarici ölkələrdən birində yaşayan M.Mirzoyanın ən azı 4 nəfərdən ibarət qrupun tərkibində Ermənistan baş nazirini siyasi və dövlət fəaliyyətinə görə qətlə yetirmək məqsədilə gizli plan qurduğuna dair əsaslı şübhələr yaranıb. Dəstə üzvlərinin cinayəti törətmək üçün lazımi vasitələr əldə etdiyi və ciddi hazırlıq işləri gördüyü aşkar edilib.

Məlumata görə, xüsusi geyim və maskalar taxan təqsirləndirilən şəxslər Nikol Paşinyanı hədələyən videoçarx hazırlayaraq internetdə yayıblar. Bundan əlavə, həmin qrupun seçkiqabağı təşviqat kampaniyasına da qanunsuz şəkildə mane olduğu bildirilir.

Faktla bağlı M.Mirzoyana qarşı Ermənistan Cinayət Məcəlləsinin müvafiq maddələri ilə (bir qrup şəxs tərəfindən dövlət və siyasi fəaliyyəti ilə əlaqədar qəsdən adam öldürməyə hazırlıq və təşviqatın aparılmasına mane olma) cinayət işi açılıb, cinayətkar şəbəkənin digər üzvlərinin tapılması istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

### Əsas mübarizə 3 siyasi qüvvə arasında aparılır

Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkilərində iştirak üçün 17 partiya və iki partiya bloku qeydiyyatdan keçib. Onların arasında baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyası, həmçinin Ermənistanın sabiq prezidenti Robert Köçəryanın Ermənistan ("Hayastan") və Narek Karapetyanın "Güclü Ermənistan" blokları da var. Rusiyalı iş adamı Samvel Karapetyanın təsis etdiyi "Güclü Ermənistan" blokuna eyniadlı partiya, "Yeni Dövr" və "Birləşmiş Ermənilər" partiyaları daxildir.

Siyasi situasiya baxımından seçkinin gedişi və nəticəsi isə Ermənistanın gələcəyi üçün olduqca böyük məna kəsb edir. Belə ki, Paşinyanın hər iki rəqibi revanşist qüvvələrin və daha çox Rusiya meyilli siyasi təmayülün təmsilçiləri sayılırlar. Bu baxımdan, seçkini "qütblərarası savaşın seçkisi" adlandıranlar da var. Məlum olduğu kimi, Nikol Paşinyan son bir neçə ildə ölkəsini Rusiya orbitindən uzaqlaşdıraraq Qərbə inteqrasiya yolunu seçib. Paralel olaraq, regional münasibətlər sisteminə baxış fərqlidir - Paşinyan ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması sənədinə imza atıb, Konstitusiya dəyişikliyini və Azərbaycan torpaqlarına əsassız iddialardan əl çəkmək yolunu seçib, ölkəsinin yeni iqtisadi nizamda logistik iştirakını təsdiqləyib. Amma digər iki namizəd məsələlərə baxışında tam fərqli bir yol təqib etməkdədir.



### Revanşistlər kimlərdir?

Rusiyanın "patronajlığı" altında seçkiyə qatıldığı iddia edilən Samvel Karapetyan Ermənistan ictimaiyyətində daha çox oliqarx kimi tanınır. Ötən il iyunun 18-də "hakimiyyətin zorla ələ keçirilməsinə açıq çağırışlar etmək" maddəsi ilə ittiham olunaraq həbs edilmişdi. Həmin vaxt Ermənistan hüquq-mühafizə orqanları bildirmişdilər ki, Karapetyanın açıqlamaları və fəaliyyəti ölkənin konstitusion quruluşu üçün təhlükə yaradıb. Sonradan həbsxana təcridi ev dustaqlığı ilə əvəz edilsə də, bu ilin yanvarında Karapetyan məhkəmənin qərarı ilə yenidən "dörd divar" arasına qaytarıldı. Cəmisi 1 gün sonra isə bu qərar da dəyişdirildi - Karapetyan yenidən ev dustaqlığına qayıtdı.

73 yaşlı Köçəryanın isə seçkilərdəki qələbə ehtimalı zəif dəyərləndirilir - səbəb kimi isə, onun rəhbərliyi dövründə Ermənistanın aclıq və səfalət içində olması göstərilir. Bununla belə, revanşist Köçəryan komandası Rusiyanın dəstəyinə ümid edir. Lakin seçki öncəsi rəy sorğuları hazırkı baş nazir Nikol Paşinyanın başçılıq etdiyi "Mülki Müqavilə" parityasının öndə olduğunu göstərir. Bunun əsas səbəbi kimi isə Ermənistan cəmiyyətinin Paşinyanın sülh siyasətinə dəstək verməsidir. Bəlli olduğu kimi, Nikol Paşinyan Azərbaycan ilə münasibətlərin normallaşmasını, Konstitusiyanın dəyişməsini, sülh müqaviləsinin imzalanmasını proiritet elan edib. Son 7-8 ayda Ermənistan üçün mühüm yeniliklər baş verib. Azərbaycan Ermənistana yük daşınması ilə bağlı embarqosunu aradan qaldırıb, neft məhsullarının ixracına başlayıb. Bu isə Ermənistanda sosial həyatın yaxşılaşmasına təkan verir. Erməni cəmiyyəti müharibə tezisləri üzərindən təbliğat aparan namizədlərin hazırkı düzəni dağıtmasından qorxur - Paşinyanın apardığı siyasəti isə Ermənistanın "xilası" adlandırırlar. Siyasi ekspertlər bildirirlər ki, Zəngəzur dəhlizi (TRIPP) layihəsi Ermənistan üçün "iqtisadi nəfəslik" ola bilər.

### Rusiya Ermənistana iqtisadi təzyiqləri artırır

Bütün bunların fonunda revanşistlər ictimai rəydə nüfuz qazanmaq üçün Qarabağ kartından yenidən istifadə etməyə çalışırlar. Digər tərəfdən, seçki öncəsi Rusiyada müəyyən dairələr Paşinyana təzyiq göstərməyə çalışırlar. Rusiyanın Ermənistana güzəştli şərtlərlə satdığı təbii qazın qiymətinin artırılacağı ilə bağlı xəbərdarlıqlar səslənir. Bundan əlavə, Moskva bəzi Ermənistan məhsullarının idxalına qadağa qoyub. Bu yöndə qadağalar daha da sərtləşməkdədir. Belə ki, Rusiyanın Federal Baytarlıq və Fitosanitar Nəzarəti Xidməti ("Rosselxoznadzor") iyunun 2-dən etibarən Ermənistandan Rusiya Federasiyasına ixrac edilən bütün növ balıq və balıq məhsullarının sertifikatlaşdırılmasının təcili olaraq dayandırılmasını tələb edib. Rusiya dövlət qurumunun rəsmi bəyanatında bildirilir ki, Ermənistandakı balıq istehsalı müəssisələrində aparılan kütləvi yoxlamaların və ciddi inspeksiyaların nəticələri tamamilə qeyri-qənaətbəxş və uğursuz hesab olunub. Bu səbəbdən, yaranmış qorxulu vəziyyət tam tənzimlənənə qədər Ermənistan tərəfi Rusiyadakı alıcılara diri balıq, dondurulmuş balıq və digər balıq məhsullarının göndərilməsini tamamilə dayandırmalıdır. Rusiya tərəfi yalnız bütün ölkədə fəaliyyət göstərən nəhəng zavodlardan cəmi ikisinə istisna tətbiq edib. Lakin "Rosselxoznadzor" xüsusi olaraq vurğulayıb ki, həmin iki zavodun istehsal etdiyi məhsullar belə Rusiya sərhədini keçərkən ciddi laboratoriya monitorinqlərindən və ən sərt təhlükəsizlik yoxlamalarından keçirildikdən sonra ölkəyə buraxılacaq.

Ümumiyyətlə, Rusiyanın mövqeyi belədir ki, əgər Paşinyan hakimiyyəti Avrasiya İqtisadi Birliyini Avropa İttifaqı ilə əvəzləyərsə, Ermənistanı çətin vəziyyət gözləyir. Bundan əlavə, revanşistlər müharibə ritorikasından da danışırlar. Lakin böyük ehtimalla seçicilər revanşizmə səs verməyəcək. Çünki revanşistlər ölkəni müharibəyə sürükləyə bilər ki, bu da erməni cəmiyyəti üçün arzuolunan deyil. Ermənilər işğalçılıq siyasətinin nəticəsinin onlar üçün necə acı olduğunu gördülər. Əgər bundan sonra Azərbaycana qarşı hərbi təhdidlər olarsa, Ermənistan yenə də ordumuz tərəfindən layiqli cəzasını alacaq. Bu baxımdan, Ermənistan cəmiyyətinin parlament seçkilərində müharibəyə yox, sülhə səs verəcəyi ehtimalı böyükdür.

***Nardar BAYRAMLI***

# Razılığa gəldilər...

## Tramp İsrail və "Hizbullah" arasında atəşkəslə bağlı razılaşmanın pozulmayacağına ümid edir



Son günlər İsrailin "Hizbullah"ın hərbi mövqelərini hədəfə almaq üçün Livana etdiyi hücumlar Yaxın Şərqdə vəziyyəti yenidən gərginləşdirib. Mayın 31-də İsrailin Baş naziri Netanyahu ölkəsinin Livandakı hərbi əməliyyatlarının genişləndiriləcəyini açıqlayıb. Onun sözlərinə görə, kampaniya daha uzun çəkə bilər, lakin məqsəd İsrailin şimal bölgələrində təhlükəsizliyi bərpa etməkdir. Mayın son günlərində isə İsrail Müdafiə Qüvvələrinin "Qolani" briqadasının bayrağı və İsrailin dövlət bayrağı Livanın cənubunda yerləşən Bofor qalası üzərində qaldırılıb. Bu barədə İsrailin müdafiə naziri İsrael Katsın bəyanatına istinadən "The Times of Israel" nəşri məlumat yayıb. Nazirin sözlərinə görə, 1982-ci ildə Bofor uğrunda döyüşün 44-cü ildönümü münasibətilə keçirilən tədbir çərçivəsində "Qolani" briqadasının hərbçiləri qalaya qayıdaraq burada yenidən İsrail və briqada bayraqlarını ucaldıblar. 1948-ci ildə yaradılmış "Qolani" briqadası İsrail ordusunun ən tanınmış piyada hərbi birləşmələrindən hesab olunur.

**Bofor qalasında İsrail bayrağı ucaldılıb**

Livanın cənubunda, Arnun kəndi yaxınlığında strateji yüksəklikdə yerləşən orta əsrlərə aid Bofor qalası uzun illər regionun mühüm hərbi məntəqələrindən biri olub. Qala müxtəlif dövrlərdə fələstinli silahlı qruplar tərəfindən istifadə edilib, 1982-ci ildə isə İsrailin Livana hərbi müdaxiləsi zamanı İsrail qüvvələrinin nəzarətinə keçib. İsrail ordusunun 2000-ci ildə Livanın cənubundan çıxmasına qədər Bofor ərazisi ölkənin yaratdığı təhlükəsizlik zonasının tərkibində olub.

Bundan əlavə, ötən bazar günü İsrail ordusu Livanın cənubunda 9 yaşayış məntəqəsinin sakinlərinə yeni təxliyə xəbərdarlığı edib. İsrail Ordusunun sözçüsü Avixay Adrai X sosial media hesabında paylaşdığı müraciətlərdə Məlix, Kəfrhuna, Əl-Aqibiyə, Əz-Zərariyə, Əl-Mərvaniyə, Snaybir, Ən-Nəccariyə, Əl-Ədusiyə (Sayda qəzası) və Xirbət Basl yaşayış məntəqələrinin sakinlərini evlərini tərk etməyə və açıq ərazilərə ən azı 1000 metr məsafədə yaxınlaşmamağa çağırıb.

Adrai bildirib ki, "Hizbullah" atəşkəs razılaşmasını pozaraq İsrailin daxili bölgələrini hədəfə alır və bu səbəbdən İsrail ordusu qruplaşmaya qarşı hərbi əməliyyatlar aparır. Məlumatlara görə, eyni vaxtda Cənubi Livanın Nəbatiyə qəzasının Breyqi kəndi İsrail aviasiyasının zərbələrinə məruz qalıb. İsrail ordusunun rəsmilərinin açıqlamasında Livanın cənubunda pilotsuz uçuş aparatının partlaması nəticəsində 1 hərbçinin həlak olduğunu, daha 3 nəfərin yaralandığını bildirib. Qeyd olunub ki, son iki həftə ərzində döyüşlər zamanı 137 zabit və əsgər yaralanıb, martın 2-dən etibarən "Hizbullah"la qarşıdurmalarda ölən hərbçilərin sayı 26 nəfərə çatıb.

Livan Prezidenti Cozef Aun isə ölkəsinə qarşı həyata keçirilən hərbi əməliyyatları "İsrailin şiddətli təcavüzü" adlandırıb. O, yaydığı bəyanatda Livanın ciddi təhlükəsizlik təhdidləri ilə üzləşdiyini qeyd edib və hökumətin vətəndaşların, xüsusilə də cənub bölgələrinin sakinlərinin üzləşdiyi çətinliklərin aradan qaldırılması istiqamətində fəaliyyətini davam etdirdiyini vurğulayıb. Prezident, həmçinin dövlət quruculuğu və islahatlar prosesinin fasiləsiz davam etdiriləcəyini bildirib.

**Tramp: İsrail Beyruta hücum etməyəcək**

Məlumatlara görə, martın 2-dən başlayan İsrailin müdaxiləsi nəticəsində qurbanların sayı artmaqda davam edir. Livan mənbələrinin məlumatına əsasən, ölkədə həlak olanların sayı 3400 nəfəri ötüb, 10 mindən çox insan yaralanıb. Hərbi əməliyyatlardan sonra Livanın cənub bölgələrindən, Beyrutun cənub rayonlarından və Bəqaa vadisindən təxminən 1 milyon nəfər məcburi köçkün vəziyyətinə düşüb.

Onu da qeyd edək ki, İsrail rəsmiləri Livanın paytaxtı Beyrutda İsrail Müdafiə Qüvvələrinin (İMQ) əməliyyatlarını genişləndirmək üçün Vaşinqtonun razılığını almağa da çalışıblar. Bu barədə "The Jerusalem Post" qəzeti mənbələrə istinadla məlumat yayıb. Nəşrin məlumatına görə, İsrailin yüksək vəzifəli rəsmiləri ABŞ administrasiyasının nümayəndələri ilə görüşlərdə İMQ-nin Beyruta qarşı əməliyyatlarının genişləndirilməsinə dəstək verilməsini xahiş ediblər. Mənbələr bildiriblər ki, İsrail tərəfi həm Vaşinqton-Tehran, həm də İsrail-Livan danışıqlarında irəliləyiş əldə olunmamasını nəzərə alaraq ABŞ-ın bu məsələdə müsbət mövqe tutacağına ümid edir.

Lakin onların ümidləri özünü doğrultmayıb. Çünki ABŞ Prezidenti Tramp İsrailin Baş naziri Netanyahu ilə telefon danışığında atəşkəsin tərəfdarı olduğunu bəyan edib. Ağ Evin rəhbəri "Truth Social" şəbəkəsində bildirib ki, İsrail və radikal "Hizbullah" hərəkatı hərbi əməliyyatların dayandırılması barədə razılığa gəliblər: "İsrailin Baş naziri Benyamin Netanyahu ilə çox məhsuldar danışığım oldu. Heç bir (İsrail - red.) qoşun Beyruta getməyəcək, geri dönəcəklər". Onun sözlərinə görə, yüksək vəzifəli nümayəndələr vasitəsilə atəşkəsə razılıq verən "Hizbullah"la da danışıqlar aparıb."İsrail onlara hücum etməyəcək, onlar İsrailə hücum etməyəcəklər", - deyə ABŞ Prezidenti qeyd edib.

D.Tramp atəşkəsin qorunub saxlanılacağına ümid etdiyini bildirib: "Görək, nə qədər davam edəcək - ümid edirəm ki, bu, həmişəlik olacaq".

**Livan Prezidenti: Bizim başqa seçimimiz yoxdur**

Benyamin Netanyahu da iyunun 1-də axşam ABŞ Prezidenti ilə apardığı telefon danışığı barədə "X" sosial şəbəkəsində yazıb: "Bu axşam Prezident Trampla danışdım və ona dedim ki, əgər "Hizbullah" şəhərlərimizə, vətəndaşlarımıza hücumu dayandırmasa, İsrail Beyrutun terrorçu hədəflərinə qarşı hücumları bərpa edəcək". Onun sözlərinə görə, İsrailin bu məsələ ilə bağlı mövqeyi dəyişməz qalır və ölkənin Müdafiə Ordusu plana uyğun olaraq Livanın cənubunda fəaliyyətini davam etdirir.

Livan Prezidenti Cozef Aun isə bəyan edib ki, İsrail ordusunun hücumlarına baxmayaraq, sülh danışıqları davam etdiriləcək, çünki barışığa nail olmaq üçün başqa alternativ yol yoxdur: "Danışıqlar müharibədən daha təhlükəsizdir. Biz müharibənin fəlakətlərini və onun nəticələrini görmüşük və görməkdə davam edirik. Lakin danışıqlar problemi bir neçə dəqiqə ərzində həll etməyəcək, bu, zaman tələb edən bir yoldur və bizim başqa seçimimiz yoxdur". Aun vurğulayıb ki, danışıqlarda iştirak etməyi kapitulyasiya və ya güzəşt hesab etmir, əksinə, bunu münaqişəni minimum zərərlə dayandırmağa imkan verən yeganə həll yolu kimi görür.

***Nardar BAYRAMLI***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Ekoloji və səmərəli...

## Velosiped insan sağlamlığı və ətraf mühit üçün əhəmiyyətlidir

Müasir şəhər quruculuğunda rahatlıq və ekoloji məsuliyyət anlayışları daha çox əhəmiyyət qazandıqca velosiped ən səmərəli və perspektivli nəqliyyat vasitələrindən biri kimi ön plana çıxır. Həm gündəlik gediş-gəliş zamanı vaxta qənaət etməyə imkan verməsi, həm də insanları aktiv həyat tərzinə təşviq etməsi velosipedi sadəcə nəqliyyat vasitəsi deyil, sağlam yaşamın vacib elementinə çevirir. Bu nəqliyyat vasitəsi daxiliyanma mühərriklərindən fərqli olaraq istixana qazı xaric etmir, atmosferi çirkləndirmir və yollarda səs-küy yaratmadan insanların narahatlığına səbəb olmur. Küçələrdə daha çox velosiped və daha az avtomobillərin olması yol qəzalarının başvermə ehtimalını da azaldır.

İyunun 3-ü Dünya Velosiped Günü kimi qeyd olunur. Bu gün BMT Baş Assambleyası tərəfindən 2018-ci ilin aprel ayında təsis edilib. Sənəd 56 ölkə tərəfindən hazırlanıb və qəbul edilib.

**Ən böyük ixtiralardan biri**

“Velosiped” sözü 1860-cı ildə Fransada meydana gəlib. Bu terminin ixtiraçısı Pyer Mişo istəyirdi ki, iki çarxlı və sadə mexanizmli bir nəqliyyat vasitəsinə ad qoysun. Fransız dilində bu söz “BİCYCLETTE” (Bisiklet) kimi səslənir.

Müasir velosipedin prototipini alman baronu Karl fon Drez 1818-ci ildə dizayn edərək patentləşdirib. Bu mexanizmin əsas çərçivəsi taxtadan, təkərləri və sükanı dəmirdən idi. Lakin onu hərəkətə gətirəcək pedalları yox idi. Onu hərəkətə gətirmək üçün ayaqlarla yerdən təkan vurmaq lazım idi. Bu ixtiraçının soyadı ixtirasında yer ala bilmədi. 1839-1840-cı illərdə bu mexanizm bir az da təkmilləşdirildi. Şotland dəmirçi Kirkpatrik Makmillan mexanizmə pedal əlavə etdi. Arxa təkər pedallara metal dartıcı çubuqlarla birləşdirilirdi. Sürücü qabaq və arxa təkərlərin arasında yerləşərək qabaq təkərə bərkidilmiş sükan vasitəsilə velosipedi idarə edə bilirdi.

Bir neçə il sonra ingilis mühəndis Tompson hava şinlərini dizayn edir və patentləşdirir. Lakin şinlər dözümlü olmadığından o zamnlar elə də məşhurlaşa bilmədi. Pedalla velosipedlər artıq 1867-ci ildən istehsal edilməyə başladı. Əvvəllər velosipedin qabaq təkəri qeyri mütənasib olaraq olduqca yekə arxa təkər isə tarazlığı qorumaq üçün nəzərdə tutularaq birinciyə nisbətdə çox kiçik idi. Bu nəhənglərdə hərəkət etmək olduqca çətin idi. Sonradan bu nəqliyat növü daha da təkmilləşdirildi.

**Velosipedlə ilk səyahət**

Tomas Stivens 1884-1887-ci illərdə velosipedlə dünya səyahətinə çıxmış ilk adamdır. Belə ki, bu səfər digər bir məqamla da unikal sayıla bilər. Stivens köhnə mexanizmli qabaq təkəri iri olan və hava şinləri olmayan velosipedlə səyahət edib.

Müasir dağ velosipedlərinin prototipi 1977-ci ildə yaranıb. Hazırda müxtəlif çeşiddə velosipedlər mövcuddur. Ən qədim velosiped yarışı 1200 km olmaqla Paris-Brest-Paris marafonu sayılır. Bu marafon indi də keçirilir.

**“Avropanın velosiped paytaxtı”**

Danimarka əhalisinin 95 faizi nəqliyyat vasitəsi kimi velosipeddən istifadə edir və onu boş yerə velosiped ölkəsi adlandırmayıblar. Velosipedə aid yaradılan ən sərfəlisi şərait isə velosiped kirayəsidir. Kopenhagendə 14 dollar girov qoymaqla gündəlik, 65 dollar girov ilə isə 1 həftəlik velosiped götürüb sonra isə qaytarıb girov qoydugunuz pulu geri ala bilərsiniz, yəni tam pulsuz şəkildə dövlətin sizə yaratdığı bu şəraitdən istifadə edə bilərsiniz. Velosipedi ictimai nəqliyyat vasitəsi kimi istifadə edən ölkələr siyahısında Hollandiya da yer alır, ancaq bu mədəniyyət Amsterdamda nə qədər inkşaf etmiş olsa da, velosiped üçün ayrılan yolların genişliyi hələ də Kopenhagendəki yolların genişliyinə çata bilmir.

**Sağlam nəqliyyat, sağlam həyat!**

Velosiped sürmək insan orqanizmi üçün çox faydalıdır. Araşdırmalar göstərib ki, gündə maksimum 10 dəqiqə velosiped sürənlər, sürməyənlərə nisbətən daha arıq olurlar. Velosiped sürərkən bütün bədən əzələləri fəaliyyətə keçir. Beləliklə, orqanizmdəki artıq yağlar əriyir. 1 saat velosiped sürərək 500 kalori yandırmaq mümkündür.

Velosiped həmçinin ürəyin dostudur. Ürək xəstəliklərindən ölən insanlaırn sayı gün keçdikcə artır. Alimlər gündə, sadəcə, 10 dəqiqə velosiped sürərək daha sağlam bir ürəyə sahib olacağınızı bildirirlər. Həm də depressiyaya düşməyə qoymur. Mütəxəssislər bildirirlər ki, velosiped sürmək insanın əhvalına da yaxşı təsir edir. Bu zaman orqanizmdə endorfin, dopamin, serotonin hormonları istehsal olunur ki, bunlar da özünüzü daha xoşbəxt və enerjili hiss etməyinizə gətirib çıxarır.

**Daha rahat yuxunu təmin edir**

Yuxuya getməkdə və ya səhərlər oyanmaqda çətinlik çəkirsinizsə, velosiped sürərək bu problemləri aradan qaldırın. Stanford Universiteti tədqiqatçılarının apardıqları araşdırmalara görə gündə 30 dəqiqə velosiped sürənlərin yuxu rejimi tam qaydaya düşür.

*Yeganə BAYRAMOVA*

# “Çimərlik mövsümü”nə az qalıb...

## Ən çox yayılan infeksiyalar hansılardır?

Çimərlik mövsümünün rəsmən açıq elan olunmasına sayılı günlər qalıb. Məlumdur ki, ölkəmizdə ənənəvi olaraq çimərlik mövsümü iyunun 15-də başlayır. Ancaq bəzi ərazilərdəki çimərliklər mayın 15-dən etibarən fəaliyyətə başlayıb. Sentyabrın ortalarına qədər davam edəcək mövsümdə Xəzər dənizinin sahilində həm pulsuz, həm də ödənişli çimərliklər fəaliyyət göstərəcək.

Hər il olduğu kimi, bu il də sahilboyu ərazilərin təmizlənməsi, xilasedici xidməti və gigiyenik-sanitar qaydalara əməl olunması müzakirə mövzusudur. Xoş və təhlükəsiz istirahətin təmin olunması üçün hər bir vətəndaşın həm şəxsi təhlükəsizlik qaydalarına, həm də sanitar-gigiyenik tələblərə ciddi şəkildə əməl etməsi olduqca vacib hesab edilir. Diqqətsizlik və məsuliyyətsiz davranışlar həm sağlamlıq problemlərinə, həm də bədbəxt hadisələrə səbəb ola bilər.

### Bu qaydalara əməl etmək vacibdir...

Mütəxəssislər bildirirlər ki, çimərlik mövsümündə ən çox rast gələnən təhlükələrdən biri boğulma hallarıdır. Ona görə də yalnız nəzarət olunan, xilasedicilərin fəaliyyət göstərdiyi və üzmək üçün təhlükəsiz hesab edilən ərazilərdə suya girmək tövsiyə olunur. Eyni zamanda spirtli içki qəbul etdikdən sonra dənizə daxil olmaq, hava şəraitinin əlverişsiz olduğu vaxtlarda üzmək və ya üzmə bacarığı zəif olan şəxslərin dərin sulara getməsi ciddi risk faktorları hesab edilir.

Çimərliklərdə sanitar-gigiyenik qaydalara əməl olunması da sağlamlığın qorunmasında mühüm rol oynayır. Çirkli su, sahildə yığılan tullantılar və ya gigiyenik normalara cavab verməyən şərait müxtəlif infeksiyaların yayılmasına səbəb ola bilər. Buna görə də istirahət edənlər tullantıları xüsusi konteynerlərə atmalı, içməli su kimi yalnız etibarlı mənbələrdən istifadə etməli və qida məhsullarını günəş altında uzun müddət saxlamamalıdırlar.

Dəniz və sahil sularında bəzən insan sağlamlığı üçün təhlükə yarada bilən müxtəlif viruslar və mikroorqanizmlər də mövcud ola bilir. Xüsusilə, kanalizasiya sularının qarışdığı və ya ekoloji vəziyyəti qənaətbəxş olmayan ərazilərdə enteroviruslar, noroviruslar və bəzi bağırsaq infeksiyalarına səbəb olan mikroorqanizmlərlə qarşılaşmaq mümkündür ki, bu da ürəkbulanma, qusma, ishal və ümumi halsızlıq kimi əlamətlərlə özünü göstərə bilər.

Mütəxəssislər həmçinin bildirir ki, açıq yarası olan şəxslər çirkli və ya mənşəyi məlum olmayan sularda üzməkdən çəkinməli, dəniz suyunun ağıza və ya gözlərə düşməməsinə çalışmalı, çimərlikdən sonra isə mütləq təmiz su ilə yuyunmalıdır. Eyni zamanda əllərin gigiyenasına xüsusi diqqət yetirilməlidir, çünki sadə profilaktik tədbirlər bir çox xəstəlik riskinin qarşısını almağa kömək edir.

Günəş şüalarının təsiri də nəzərə alınmalı olan vacib amillərdəndir. Belə ki, uzun müddət birbaşa günəş altında qalmaq günvurma, susuzlaşma və dəri yanıqları ilə nəticələnə bilər. Bu baxımdan günün ən isti saatlarında kölgədə istirahət etmək, kifayət qədər maye qəbul etmək və qoruyucu kremlərdən istifadə etmək tövsiyə olunur.

### Pulsuz çimərliklər bu ərazilərdədir

Paytaxtın Şıx, Görədil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbələrində baxımsız sahilyanı ərazilərdə yaradılan pulsuz çimərliklərdə təmizlik, abadlıq və digər hazırlıq işləri tamamlanıb. Sakinlərin rahat və təhlükəsiz istirahəti üçün çimərlik ərazilərinə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, tələbata uyğun miqdarda kölgəliklər, soyunub-geyinmə və duş kabinələri, sanitar qovşaqlar, söhbətgahlar, oturacaqlar və şezlonqlar, zibil konteynerləri yerləşdirilib, oyun meydançaları yenilənib və istifadə üçün tam hazır vəziyyətdədir. Əlilliyi olan şəxslərə əlçatanlığın təmin edilməsi məqsədilə hərəkəti məhdud olan şəxslərin suya və çimərlikdəki məntəqələrə maneəsiz gedə bilməsi üçün xüsusi yollar və panduslar inşa edilib, çimərlik ərazisinə ən yaxın dayanacaq əlilliyi olan şəxslər üçün xüsusi nişanlama ilə ayrılıb.

Qeyd edək ki, çimərlik ərazisinə giriş və yaradılan bütün imkanlar tamamilə ödənişsiz istifadə üçün nəzərdə tutulub.



Yoluxucu xəstəliklər üzrə mütəxəssis, həkim Mələk Heydərli “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, dəniz, göl və açıq su hövzələrində infeksiya riskləri yüksək olur. Onun sözlərinə görə, bu ərazilər istirahət üçün geniş istifadə olunsa da, müxtəlif mikroorqanizmlərin yaşaması və yayılması üçün əlverişli məkandır: “Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, rekreasiya suları bakterial, viral və parazitar infeksiyaların ötürülmə mənbəyi ola bilər. Dənizdə ən çox rast gəlinən infeksiyalar suyun fekal çirklənməsi və təbii mikrobioloji florası ilə əlaqədardır. Kəskin bağırsaq infeksiyalarına yoluxma halları baş verə bilər. Daha çox çirkli suyun udulması ilə yayılır. İshal, qarın ağrısı, qusma və hərarət yarada bilər. ÜST məlumatlarına görə, rekreasiya sularında ən çox qeydə alınan xəstəlik qrupu kəskin qastroenteritlər və əsas mexanizm fekal-oral

### Dənizdə ən çox rast gəlinən infeksiyalar...

yoldur. Əsasən çirklənmiş suyun udulması, dəridən nüfuz etmə nəticəsində keçir. Gigiyenik şəraiti zəif olan çimərliklərdə mikroorqanizmlərlə təmas mümkündür. Xüsusilə, qumla oynayan uşaqlarda risk artır. Bunlarla yanaşı çimərlikdə qulaq infeksiyalarına da rast gələ bilər. Belə ki, xarici qulaq yolunda ağrı, qaşınma və axıntı yaranır, bəzən eşitmədə müvəqqəti azalma ilə özünü göstərə bilər. Çirkli su ilə təmas sonrası göz qızartısı, yanma, sulanma və irinli axını yarana bilər. Xüsusilə, adenovirus çimərlik və açıq su mühitlərində epidemik konyunktivitin ən mühüm törədicilərindən biridir və yüksək yoluxuculuğa malikdir. Adenoviruslar kontakt yolu ilə sürətlə yayılır və çimərliklərdə kiçik epidemiyalar yarada bilər”.

### Uşaqlar çimərlik infeksiyalarına qarşı daha həssasdır

Həkim qeyd edib ki, çimərliklərdə uşaqlar üçün də risklər mövcuddur: “Uşaqlar dəniz və çimərlik infeksiyalarına qarşı daha həssas qrup hesab olunur. Bunun əsas səbəbi immun sistemlərinin tam formalaşmaması, su udma ehtimalının yüksək olması və gigiyena qaydalarına daha az riayət etmələridir. Uşaqlarda həmçinin dəri daha həssas olduğu üçün dəri infeksiyaları daha tez inkişaf edə bilər. Bəzi klinik və epidemioloji hallarda su ilə təmas tövsiyə edilmir”.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5359
Sifariş: 701
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova